Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

25 İYUL 2019-cu il

№ 129 (4027)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİLƏR KÜTLƏVİ ŞƏKİLDƏ RUSİYAYA QAÇIR

▪ səh. 5 ▪

Azərbaycan Prezidenti daha bir tənqidi qələm sahibinə mənzil bağışladı...

▪ səh. 2 ▪

Ermənistanın dünyada himayədarlarını itirməsi Qarabağ münaqişəsinin həllini tezləşdirəcək

▪ səh. 9 ▪

Ermənistan XİN Azərbaycanı atəşkəs pozuntusunda suçladı - MQ bağışlanmaz şəkildə susur...

▪ səh. 3 ▪

Naxçıvanda Türkiyənin hərbi bazası - Ermənistanda yeni xof...

▪ səh. 6 ▪

Ermənilər Fransanı Cənub-Şərqi Asiya ölkələrinə satır - separatçı şəhərləri indi də əks istiqamətdə "nikahlamaq" istəyirlər...

▪ səh. 7 ▪

Jirinovskinin Ermənistana mesajları - Ukraynalıların gününə düşəcəksiniz...

▪ səh. 6 ▪

KİV-in reklam gəlirləri 3 milyon manat artıb, çap media bir qəpik də reklam görmür...

▪ səh. 4 ▪

Azərbaycana aqrar sektor xəttilə böyük miqdarda valyuta axını başlanır

▪ səh. 12 ▪



▪ səh. 11 ▪

## Sovet dövrü bəzi Azərbaycan tarixçilərinin elmi işləri müstəqil dövlətçilik ideologiyası ilə aşkar ziddiyyətə keçdi - Bəzi işlər ləğv oluna bilər...



Dünya neft bazarında Azərbaycanın qiymət siyasəti özünü tam doğruldur...

▪ səh. 8 ▪

Ecevitin 1974-cü il əfsanəvi «Kipr xidmətini» Ərbakanın adına yazanları kimlər idarə edir...

▪ səh. 10 ▪



Bu aralarda Ermənistanın Gürcüstana yaxınlaşmaq səylərinin şübhəli və gizli tərəfləri...

▪ səh. 7 ▪

▪ səh. 5 ▪

Ermənilər özləri fakt açır - ABŞ Azərbaycana 100 milyon, Ermənistana cəmi 7 milyon dollar...



▪ səh. 10 ▪

Türk əsilli Conson İngiltərə hakimiyyətinin başında - Türkiyə və Azərbaycanla münasibətlərin sabahı...



▪ səh. 13 ▪

Dil pozucularının cərimələnməsi rəsmiləşdi



▪ səh. 14 ▪

Bir neçə klinikada qeyri-rəsmi çalışan həkimlər - yalnız pulun başında olan yetərsiz tibbi xidmətin daha bir səbəbi...



▪ səh. 15 ▪

Uşaqlarımızda xərçəngi çoxaldan səbəblər...



## Azərbaycan XİN ermənilərin Avstraliyada Qarabağla bağlı növbəti "qardaşlaşma" cəhdinə sərrast şərh verdi

*"...lobbi qruplarının maraqlarına xidmət edən kağız parçasıdır"*

**Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat katibi Leyla Abdullayeva Avstraliyanın Rayd şəhər Şurasında Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal edilmiş Xankəndi şəhəri ilə "dostluq əlaqələrinin yaradılması"na dair sənədin qəbul edilməsi ilə bağlı açıqlama verib.**



Baki-xeber.com xəbər verir ki, XİN rəsmisi bildirib ki, Rayd Avstraliyanın ən çox erməni əsilli vətəndaşının cəmləşdiyi şəhərdir: "Təsadüfi deyil ki, cəmi 2 nəfər tərəfindən qəbul edilmiş sözügedən sənədin layihəsi Rayd şəhər Şurasının məhz erməni əsilli üzvü Sarkis Yedelyan (Sarkis Yedelian) tərəfindən irəli sürülüb və şəhərin meri Cerom Laksal tərəfindən dəstəklənib.

L.Abdullayeva xatırladıb ki, Avstraliya Federal Hökuməti Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyir: "Avstraliyanın inzibati ərazi vahidlərinin yerli icra hakimiyyəti və ya qanunverici orqanları tərəfindən ermənilərin lobbiçilik səyləri əsasında qəbul olunan bu kimi sənədlərə gəldikdə isə, vurğulamaq istərdim ki, belə sənədlər hüquqi nöqteyi-nəzərdən heç bir əhəmiyyət kəsb etmir və yalnız müəyyən dairələrin və ya lobbi qruplarının maraqlarına xidmət edən kağız parçasıdır".

***Baki-xeber.com***

## İmişlidəki "Şəmmədli" qəbiristanlığında dəfn edilmiş 9 naməlum şəhidə aid meyit qalıqları ekshumasiya ediləcək

**1993-1994-cü illərdə Füzuli rayonu istiqamətində gedən döyüşlər zamanı həlak olaraq tanınmadan İmişli rayonundakı "Şəmmədli" qəbiristanlığında dəfn edilmiş şəhidlərə aid məzarlarla bağlı Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının Azərbaycan Respublikasının Baş prokurorunun müraciətinə əsasən, Bakı Hərbi Məhkəməsi tərəfindən 14 iyun 2019-cu il tarixli qərar qəbul edilib.**

"Trend"in məlumatına görə, qərara uyğun olaraq, "Şəmmədli" qəbiristanlığında 9 naməlum məzarda dəfn edilmiş şəhidlərə aid meyit qalıqlarının ekshumasiyası nəzərdə tutulur.

Cari il iyul ayının 23-də meyit qalıqlarının ekshumasiyası və tibbi-genetik ekspertizasının keçirilməsi istiqamətində işlərə başlanıb.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası, Dövlət Təhlükəsizliyi Xidməti, Respublika Hərbi Prokurorluğu və Səhiyyə Nazirliyi Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya ETT-Birliyi tərəfindən yerli icra hakimiyyəti orqanlarının iştirakı ilə həyata keçirilən prosesin yekunları barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

## Rüstəm Usubov İmişli və Göyçay sakinləri üçün qəbul keçirəcək



**Baş prokurorun birinci müavini Rüstəm Usubov avqustun 2-də saat 10:00-da İmişli rayon prokurorluğunun inzibati binasında İmişli və Göyçay rayon sakinlərinin qəbulunu keçirəcək.**

Qəbulda vətəndaşların prokurorluq orqanlarının səlahiyyətlərinə aid müraciətlərinə baxılacaq.

Vətəndaşların qəbulla bağlı qeydiyyatı və İmişli rayonuna gəlmələrinin təşkili müvafiq rayon prokurorları tərəfindən həyata keçiriləcək.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin 437-28-79 nömrəli telefonu və contact@prosecutor.gov.az elektron poçt ünvanı vasitəsilə də qəbula yazıla bilər.

# Prezident İlham Əliyev Beynəlxalq Astronavtika Federasiyasının prezidentini qəbul edib

**Prezident İlham Əliyev iyulun 24-də Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Jan-İv Lö Qalı qəbul edib.**



Görüşdə Azərbaycanda kosmik sənayenin inkişafında əldə edilən uğurlar qeyd olunub, yüksək texnologiyaların, o cümlədən kosmik sənayenin ölkəmizdə prioritet sahələrdən biri olduğu bildirilib, Azərbaycanın artıq üçüncü süni peykinin orbitə buraxılması mühüm hadisə kimi dəyərləndirilib və ölkəmizin dünya kosmik ailəsinin üzvü olmasının əhəmiyyəti vurğulanıb.

Söhbət zamanı Azərbaycanla Fransa arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən kosmik sənaye sahəsində uğurla inkişaf etdiyi bildirilib, eyni zamanda, ölkəmizin Beynəlxalq Astronavtika Federasiyası ilə də əməkdaşlığının genişləndirilməsindən məmnunluq ifadə olunub.

Görüşdə əməkdaşlığımızın perspektivləri ətrafında da fikir mübadiləsi aparılıb.

# Azərbaycan Prezidenti daha bir tənqidi qələm sahibinə mənzil bağışladı...

**Prezident İlham Əliyev şair-publisist Murad Köhnəqalaya mənzil hədiyyə edib. Bu barədə məlumatı şairin özü sosial şəbəkədə paylaşıb. O bildirib ki, mənzil problemi ilə bağlı Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevaya ünvanlanan müraciətə müsbət cavab verilib:**

"Bu şad xəbəri Bakı Şəhər İcra Hakimiyyətindən mənə zəng edərək bildirdilər. Möhtərəm Prezidentimizin mənə bağışladığı ev altmış yaşıma ən gözəl hədiyyədir. Mətbuatımızın 144-cü ildönümündə məni sevindirdiyinə görə cənab Prezident İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm! Azərbaycanın xoşbəxtliyi uğrunda fəaliyyətində ona möhkəm cansağlığı, tükənməz enerji arzulayıram! Qoy həmişə günəş olsun!".

Murad Köhnəqala bildirib ki, məhz ev kirayəsi verdiyi an Bakı Şəhər İcra Hakimiyyətindən zəng gəldi, dedilər, Prezidentə ünvanlanan məktubu dəyərləndiriblər və mənə mənzil vermək istəyirlər: "Çox sevindim. Bu gün də çağırdılar, getdim, evin yerini göstərdilər. Yeni Yasamalda, Bünyadzadə küçəsində, on üçüncü mərtəbədə ikiotaqlı evdir. Ancaq ev yaşayış üçün iki-üç aya hazır olacaq. Təmirli, hazır vəziyyətdə deyil".



***Elşad Barat:** "Dövlət qurumları bu nümunəyə sadiq qalmalıdırlar"*

***Kəramət Böyükçöl:** "Murad xoşbəxt görünəndə mən uşaq kimi sevinirəm"*

Qeyd edək ki, Murad Köhnəqala, eyni zamanda, hakimiyyətə qarşı tənqidi mövqedə dayanan jurnalist kimi tanınıb. Ölkə başçısının şairə verdiyi qiymət bir daha göstərir ki, bu cür həssas məsələlərdə hakimiyyət heç bir ayrıseçkiliyə yol vermir.

Murad Köhnəqalanın yaxın dostu olan yazıçı Elşad Barat qəzetimizə açıqlamasında bildirdi ki, bu hadisəyə hamı kimi o da ürəkdən sevinib: "Muradın 60 yaşı var. Onunla dost olan şəxs kimi bilirəm ki, kirayədə qalırdı. Çox təəssüf ki, bu gün Azərbaycan yazıçısı öz qonorarı ilə ev ala bilmir. Murad da bunu öz gücünə edə bilməmişdi. Qismət beləymiş. Çox gözəl. İnşallah, başqa evi olmayan yazıçılara da ev arzulayıram. Bu sevinci də birlikdə yaşayarıq. Muradın şəxsən özü müraciət etmədi. Bir çox ziyalı bu təşəbbüsə qoşuldu. Geniş bir siyahı alındı. Baş redaktorlar, millət vəkilləri, tanınmış ziyalılar həmin sənədə imza atdılar. Nə yaxşı ki, müraciətin nəticəsi gözəl oldu. Tənqid inkişaf deməkdir. Muradın tənqidləri obyektiv olub. O, Azərbaycan üçün lazımlı qələm adamıdır. Hesab edirəm ki, dövlət qurumları bu nümunəyə sadiq qalmalıdırlar. Heç bir qələm adamına onun mövqeyinə görə ayrıseçkilik olmamalıdır. Murad kimi adamlar bu xalq üçün yazıblar. Yaradıcı insan adi məişət qayğısı ilə yaşamamalıdır. Onun həmin problemləri həllini tapanda, daha məhsuldar olur, gözəl əsərlər ortaya qoyur. Onu da qeyd edim ki, Murad Köhnəqala ona verilən evin bir otağını mənə verdi. Mənim də kirayədən canım qurtardı, gedib onun yanında yaşayacağam".

Murad Köhnəqalanın başqa bir dostu Kəramət Böyükçöl də ölkə başçısının bu qərarına çox sevindiyini deyir: "İlham Əliyev Azərbaycanın böyük şairi Murad Köhnəqalaya ev verib. Muradın, onun ailəsinin üzündəki sevinc hissini heç nəyə dəyişmərəm. Xəbəri eşidən kimi kirayə qaldığı evə gəldim. Murad xoşbəxt görünəndə mən uşaq kimi sevinirəm. O bu dünyaya sığacaq adam deyil, amma dörd divara ehtiyacı vardı. Təbrik edirəm".

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Anna Nağdalyan erməni mətbuatına açıqlamasında Qarabağ danışıqları ilə bağlı məsələyə toxunaraq həyasızcasına Azərbaycanı atəşkəsi pozmaqda ittiham edib. O qeyd edib ki, Azərbaycan tərəfindən ermənilərə olan nifrət və ön xətdə vəziyyəti gərgin saxlamaq şəraitində paralel olaraq səmərəli danışıqlar aparmaq mümkünsüzdür:**

# Ermənistan XİN Azərbaycanı atəşkəs pozuntusunda suçladı - MQ bağışlanmaz şəkildə susur...




## *Əli Orucov: "ATƏT-in Minsk Qrupu üçün münaqişənin həlli vacib əhəmiyyət kəsb etmir"*

"Azərbaycan tərəfindən cəbhə bölgəsində vəziyyət gərgin olduğu təqdirdə səmərəli danışıqlar aparmaq mümkün deyil".

Onun fikrincə, Ermənistan Qarabağ münaqişəsinin həllini yalnız ATƏT-in Minsk Qrupu həmsədrləri çərçivəsində və beynəlxalq hüquq prinsipləri əsasında görür: "Həll prosesinə dair prinsipial mövqeyimiz və yanaşmamız hökumət sənədində açıqdır. Orada bütün elementlərin sabit olduğu bildirilir. Bizim bütün bəyanatlarımız həmin elementlərin əhatə dairəsinə əsaslanır. O da əsas məsələnin ATƏT MQ həmsədrliyi çərçivəsində və beynəlxalq hüquq prinsipləri, xüsusən də xalqlar bərabərliyi və öz müqəddəratını təyinetmə prinsipi çərçivəsindədir".

Göründüyü kimi, işğalçı ölkə rəsmisi belə bir saxta rəy yaratmağa çalışır ki, guya cəbhədə atəşkəsi pozan tərəf Azərbaycandır və bu səbəbdən danışıqlarda səmərəli nəticə əldə olunmur. Ən qəribəsi isə danışıqlarda vasitəçilik missiyasını üzərinə götürən ATƏT-in Minsk Qrupunun bunu susqunluqla izləməsidir. Əgər doğrudan da atəşkəsi Azərbaycan pozursa, o zaman Minsk Qrupu bunu açıq şəkildə bəyan etsin. Yox, əgər belə deyilsə, o zaman bildirsin ki, deyilənlər doğru deyil. Ermənistanın arqumentləri əsassızdır. Necə ki, A.Nağdalyan növbəti uydurma ilə çıxış etdi. Belə bir rəy yaratmaq istədi ki, guya Azərbaycanın ucbatından danışıqlar nəticə vermir.

Maraqlıdır, ATƏT-in Minsk Qrupu niyə bu baş verənlərə görə susur?

*"Ona görə də qurum Ermənistan tərəfinin istənilən həyasızlığını görməzdən gəlir"*

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, Minsk Qrupu ona görə susur ki, münaqişənin həllində səmimi deyil: "ATƏT-in Minsk Qrupu üçün münaqişənin həlli vacib əhəmiyyət kəsb etmir. Onlar üçün vacib olan odur ki, cəbhədə hərbi əməliyyatlar yenidən başlamasın. Buna da zatən illərdir nail olurlar. Yəni atəşkəsin pozulması halları nüvbəti müharibəyə gətirib çıxarmırsa, deməli, mövcud status-kvo ATƏT-in Minsk Qrupunu qane edir. Ona görə də qurum Ermənistan tərəfinin istənilən həyasızlığını görməzdən gəlir. Münaqişənin həllində maraqlı olsalar, ilk növbədə işğalçı ilə işğala məruz qalan tərəfə fərq qoyarlar. Bu zaman işğalçı Ermənistana güclü təzyiq göstərmək üçün münbit zəmin yaranacaq. Ancaq, göründüyü kimi, bunu nəinki etmirlər, heç etmək fikrində də deyillər. Heç bundan sonra da düşünmürəm ki, ATƏT-in Minsk Qrupunun bu yöndə hansısa fəaliyyəti olsun.

O üzdən, danışıqlarda belə biabırçı mənzərə yaranıb. Hesab edirəm ki, Minsk Qrupunun bu fəaliyyətsizliyinə görə qurumun vasitəçiliyindən imtina etmək lazımdır. Nə vaxta qədər belə susqun mövqe sərgiləyəcəkləri bəlli deyil. Bəlli olan odur ki, ATƏT-in Minsk Qrupu işğalçı tərəfə təzyiq göstərmək fikrində deyil. Ona görə də biz buna adekvat olaraq çıxış yolu tapmalıyıq".

***Vidadi ORDAHALLI***

**"İyulun 22-də - ölkədə Milli Mətbuat Gününün qeyd edildiyi bir vaxtda əsas vəzifəsi cəmiyyəti operativ, obyektiv və dolğun informasiya ilə təmin etmək olan bir neçə media təmsilçisi öz peşə borclarını yerinə yetirmək əvəzinə, ictimai diqqəti üzərlərinə çəkmək məqsədilə söz, mətbuat və ifadə azadlığı ilə heç bir çərçivəyə sığmayan hərəkətlərə yol veriblər.**

# Adını azad media qoyanlar MŞ-ni niyə hədəfə götürdülər...




## *Yadigar Məmmədli: "...aparılan media siyasətinə kölgə salmaq istəyirlər"*

"Qanundankənar hərəkətlər yolverilməzdir"

Bildiririk ki, medianın inkişafı üçün dövlət tərəfindən yaradılmış əlverişli şəraitdən belə suiistifadə halları mövcud qanunvericiliyin tələblərinə əsasən qətiyyən yolverilməzdir". Bu barədə DİN Mətbuat xidmətinin yaydığı açıqlamada bildirilib.

Qeyd olunub ki, özlərini müstəqil jurnalist adlandıran həmin şəxslər səhər saatlarında Daxili İşlər Nazirliyinin inzibati binasının qarşısında qanunsuz olaraq toplaşmağa və aidiyyəti dövlət orqanları ilə öncədən razılaşdırmadan aksiya keçirməyə cəhd göstəriblər: "Polis əməkdaşları tərəfindən bu təxribat xarakterli cəhdin qarşısı alınıb və aparılmış profilaktik söhbətlərdən sonra həmin şəxslər ərazidən uzaqlaşıblar.

Onlar bununla kifayətlənməyərək analoji hərəkətləri Mətbuat Şurasının inzibati binasının qarşısında da təkrarlamağa çalışıb, lakin ərazidə xidmət aparan polis əməkdaşları tərəfindən görülmüş tədbirlərlə ictimai asayişin və hüquq qaydasının kobud şəkildə pozulmasına yol verilməyib".

O da məlumdur ki, Azərbaycanda medianın və mətbuatın inkişafı ilə bağlı sistemli işlər görülür. Mətbuatın maliyyə imkanları yaxşılaşıb. Son illər qəzetlərin maddi-texniki bazası xeyli düzəlib. Medianın inkişafı ilə bağlı bir sıra layihələr həyata keçirilir. Jurnalistlərin mənzil şəraiti yaxşılaşdırılır və s.

Bütün bunların fonunda, bu cür aksiyaların keçirilməsinə cəhd edilməsi nə məqsəd güdə bilər? Bu, ölkədə aparılan media siyasətinə kölgə salmaq məqsədilə edilə bilərmi?

Məsələyə münasibət bildirən Demokratik Jurnalistlər Liqasının rəhbəri Yadigar Məmmədlinin sözlərinə görə, bu kimi cəhdlərlə aparılan media siyasətinə kölgə salmaq istəyirlər: "Azərbaycanda son illər mətbuatla bağlı görülən işlər üzdədir. Ölkə mətbuatı bir çox sahədə dövlətin qayğısını görür. Cənab Prezidentin 10 il əvvəl yaratdığı KİV-in İnkişafına Dövlət Dəstəyi Fondu vasitəsilə hər il çoxsaylı layihə həyata keçirilir. Bu layihələrdən jurnalistlər, jurnalist qurumları, qəzetlər yararlanırlar. Mətbuata əlavə maliyyə yardımı ayrıldı. Bütün bunların hamısı bu sahədə dövlətin gördüyü işlərdir, ortaya qoyduğu iradədir. Kimsə bundan narazıdırsa, bu onun öz işidir. Kimliyindən asılı olmayaraq, hər kəs öz iradlarını qanunvericilik çərçivəsində ifadə etməlidir. Qanundankənar hərəkətlər yolverilməzdir. Mətbuat Şurası çoxsaylı KİV-i birləşdirir. MŞ-nin İdarə Heyəti Azərbaycan mətbuatının inkişafı ilə bağlı çoxlu qərar verib. Bütün bu görülən işlərə kimsə kölgə sala bilməz. Təəssüf ki, bəzən belə xoşagəlməz halların baş verməsinin şahidi oluruq. Hesab edirəm ki, ölkə mətbuatı irəli baxmalıdır. Daha çox dövlətin, millətin qarşısında özünün missiyası var. O da məlumatlandırma və maarifləndirmə missiyasıdır. Ancaq bu missiya olmalıdır, başqa şeylərə fikir verilməməlidir".

***Vidadi ORDAHALLI***

**Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, 2018-ci ildə Azərbaycanda kütləvi informasiya vasitələrinin gəlirləri 65% artıb. Bu zaman qəzet və jurnallarda 100 manatlıq reklam kontenti yerləşdirilib. Qeyd edilənə görə, ötən il KİV reklam materiallarının yerləşdirilməsindən 7 mln.747 min manat əldə edib, bu da 2017-ci ildə olduğundan 3 mln. manat çoxdur.**



# KİV-in reklam gəlirləri 3 milyon manat artıb, çap media bir qəpik də reklam görmür...

***Müşfiq Ələsgərli:*** *"...reklamları özlərinin təsisçisi olduqları KİV-ə yönəldirlər"*

Reklam gəlirlərinin 89,2%-i (6,9 mln. manat) teleşirkətlərin payına düşür. Yerli radiolar reklamdan 360,2 min manat (-49%), internet resurslar 474,5 min manat (+34,4%) qazanc əldə ediblər. Biznesdən qəzet və jurnalların gəliri simvolik 100 manat olub, 2014-cü ildə isə çap KİV-nin reklamdan gəliri 1,4 mln. manatı üstələyirdi.

KİV-in reklam gəlirləri 3 milyon manat artsa da, bundan çap mediasının heç bir fayda görmədiyi məlumdur. Azərbaycanda çap mediasının reklamdan əldə etdiyi gəlirdən danışmağa dəyməz. Demək olar ki, reklam verən şirkətlər öz reklamlarını əsasən elektron KİV-də və sosial mediada yerləşdirirlər. Bu halda, qəzetlərin reklam almaq imkanları azalır.

Çap mediasının reklamdan gəlir götürə bilməməsinin səbəblərini şərh edən tanınmış media eksperti Müşfiq Ələsgərli "Bakı-Xəbər"ə açıqlamasında bunun bir neçə amillə bağlı olduğunu bildirdi: "Reklam bizim media qurumları üçün çox vacib amildir. Dünya təcrübəsinə baxsaq görərik ki, medianın 75-80 faizi reklam gəlirlərindən maliyyələşir. Ancaq çox təəssüf ki, Azərbaycanda bu göstəriciyə nail olmaq mümkün olmayıb. Çünki hələlik KİV lazım olan səviyyədə reklam ala bilmir. Burada da səbəblər müxtəlifdir. KİV-in özünün reklam menicmentinin peşəkar səviyyədə olmaması problemdir, reklam verənlərin özlərinin çox aşağı reklam verməsi də başqa bir problemdir. Amma bunlar təbii problemdir. Burada iki əsas problem var ki, onun üzərində dayanmaq istəyirəm. Birincisi, bu sosial medianın, internetin reklam bazarına ciddi şəkildə təsir etməsi ilə bağlıdır. Yəni onlar bizim ənənəvi KİV-in, çap mediasının reklam bazarına daxil olublar. Çox təəssüf ki, bu reklam daha çox internet vasitəsilə, o qurumların özlərinin rəsmi internet saytlarında, yaxud da digər analoji resurslarda dağıdılır. Bu reklam da parçalandığı üçün ənənəvi KİV-in reklam gəlirləri azalır. İkincisi, çox təəssüf ki, çap mediasının reklamdan gəlir əldə etməməsinin səbəbi digər bir neqativ amillə bağlıdır. Bu da reklam verən rolunda iştirak edən bizim əksər dövlət qurumunun özlərinin daxili KİV qurumlarını təsis etməsidir. Hazırda əksər nazirliyin özlərinin qəzetləri, KİV qurumları var. Təbii ki, onlar populyar kütləvi informasiya vasitələri deyil, onların hansı məqsədlə yaradıldığını hər kəs bilir. Onlar məhdud bir auditoriya üçündür. Əslində, o dövlət qurumları özlərinin informasiya təminatını, ümumilikdə, KİV vasitəsilə həyata keçirirlər, lakin reklam vermək məsələsinə gəldikdə isə, daha çox reklamları özlərinin təsisçisi olduqları KİV-ə yönəldirlər. Bax, belə neqativ amillər mövcuddur. Əslində, hər nazirliyin, dövlət qurumunun özünün KİV yaratmasına ehtiyac yoxdur, onlar bir vaxt oloblar və öz ömürlərini başa vurublar. Düzdür, qanunvericilik bunu istisna etmir, onlar KİV qurumları yarada bilərlər. Amma onlara heç bir zərurət yoxdur".

*"Ənənəvi medianın reklam bazarının formalaşması üçün mexanizm olmalıdır"*

M.Ələsgərli onu da bildirdi ki, bu qurumlar reklamları öz təsis etdikləri KİV-ə yönəltdiyi üçün, ənənəvi KİV-in reklam əldə etməsi probleme çevrilir. M.Ələsgərlinin sözlərinə görə, KİV-in reklam gəlirlərində artım varsa, bu yaxşı göstəricidir, ancaq o da yetərli deyil. "Hətta KİV-in reklam gəlirləri 3 milyon manat artsa belə, bu elə də yetərli deyil. Ona görə də ənənəvi medianın reklam bazarının formalaşması üçün mexanizm olmalıdır. Əslində, mexanizm var və Mətbuat Şurası təklif edib. Sadəcə olaraq, o təklifləri nəzərə alıb mexanizmi reallaşdırmaq lazımdır ki, reklam məsələsində səliqə-sahman olsun" - deyə M.Ələsgərli vurğuladı.

***İradə SARIYEVA***

**Milli Mətbuat Günündə "sözə azadlıq", "sözümüzü demək istəyirik",- deyən beş-on nəfərin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Mətbuat Şurasının qarşısında aksiya keçirmək cəhdlərinə, düzü, çox təəccübləndim. Əsas şüarlarından biri də bu idi ki, guya sözlərini deməyə polis imkan vermir.**



# Sözümüz var...

*Və ya gəzməyə yox, söyməyə qərib ölkə axtaranlar...*

"Azad sözü boğduğuna görə", hətta hakimiyyəti də suçladılar. Məkan olaraq Daxili İşlər Nazirliyinin qarşısının seçilməsi, polisin adının tez-tez hallandırılması əvvəlcədən cızılmış planın bir hissəsi idi.

Məlumi-məsələ o idi ki, diqqət çəkmək istəyirdilər. Feysbukda və digər sosial şəbəkələrdə düzənlədikləri "tədbiri"canlı yayım da edirdilər ki, sifariş verənlərinə"sponsurluq" edənlər onların "söz azadlığı" üçün çıxardıqları hoqqanı görüb dəstəkləsinlər, daha doğrusu, "səxavət kisə"lərinin ağzını açsınlar.

Müşahidə etmişik: qanunsuz aksiya keçirmək, sabitliyi pozmağa yönəlik hərəkətlərinə haqq qazandırmaq istəyənlərin polisin haqlı tələblərini müzakirə mövzusuna çıxarmaları açıqdan-açığa qərəzdən başqa bir şey deyil.

Polis güc strukturudur. O, ölkəmizdə sabitliyin, asayişin təminatçısıdır, ən əsası, xalqın xidmətçisidir. Sabitliyimizə, əminamanlığa uzanan əlləri kəsmək, xain əməllərin qarşısını almaq, məkrli niyyətləri ifşa etmək, min bir əziyyət və qanımız bahasına qazandığımız, uğrunda canımızdan keçdiyimiz müstəqilliyimizi qoruyub-saxlamaq həm də bizim qutsal görəvimizdir.

Polisin də ilk silahı Sözdür. O söz ki, Haqqa söykənəndə, qərəzsiz deyiləndə, özündə ədalət prinsiplərini ehtiva edəndə onun yeri hər zaman ucada olur. Ən qatı cinayətkarı belə qanuna dəvətdə də səmimiyyət nümayiş etdirən, vətəndaşa təhlükədən daha yaxın olmaqla neçə-neçə ömürləri ölümün cəngindən alan Azərbaycan Polisi haqqında "Mənim polisim məni qoruyur" şüarını "mübaliğəsiz, rəngsiz, boyasız", özü də ürəkdən deyənlərin haqqına girən bu "azad söz ovçuları"na verəcəyimiz adı tapmaqda çətinlik çəkirik.

"Azərbaycanda söz azadlığı yoxdur" deyənlər, onları idarə edənlər, gəzməyə yox, söyməyə qərib ölkə axtaranlar sosial şəbəkələrdə ölkə rəhbərindən tutmuş, bir çox dövlət məmurlarına yazdıqları təhqirlərə, qarayaxmalara heç bir vəchlə haqq qazandıra bilməzlər.

Çünki haqsızdırlar və öz ayıblarını görməzdən gəlirlər. Görmək isə Allahın insana verdiyi bir lütfdür. Qəlbinin gözü İlahi tərəfindən möhürlənəni, özü yatıb özgələrin yuxusunu görənləri isə qəflətdən İsrafilin suru belə oyada bilməz...

Sözümüzü və özümüzü özgə sözünü deyənlərdən qoruyaq. Bizə gəlincə, deməyə sözümüz də var, üzümüz də.

***Hafiz TƏMİROV***

**Rusiyanın Qaydar adına İqtisadi Siyasət İnstitutunun tədqiqatına əsasən, Rusiyaya Ermənistandan mühacirlərin sayı artıb. 2019-cu ilin göstəricisi əvvəlki on ilin rəqəmlərindən daha çoxdur.**



# Ermənilər kütləvi şəkildə Rusiyaya qaçır

## *Aqşin Əliyev: "Ermənistandan əhalinin kütləvi qaçışının birinci səbəbi iqtisadi amillə bağlıdır"*

Qaydar adına İqtisadi Siyasət İnstitutunun tədqiqatında deyilir ki, 2019-cu ilin ilk dörd ayı ərzində Rusiya əhalisinin miqrasiya artımı, ümumilikdə, 98 min nəfər təşkil edib. Müqayisə üçün - ötən ilin analoji dövründə bu göstərici 57,1 min nəfər təşkil edib. Əgər 2018-ci ilin yanvar-aprel aylarında Ermənistandan Rusiyaya 4 900 mühacir gəlibsə, 2019-cu ildə bu göstərici 2,5 dəfədən çox artıb və 12 800 nəfər təşkil edib.

Ermənilərin son aylarda kütləvi şəkildə ölkəni tərk edib Rusiyaya üz tutmasının səbəbi nə ilə bağlıdır?

Ekspert Aqşin Əliyevin sözlərinə görə, bunun bir çox obyektiv səbəbi var: "Deyilən dövrdən əvvəl də əhali Ermənistanı kütləvi surətdə tərk edirdi.

Ötən illərin statistikasını araşdırsanız bunu aydın sezə bilərsiniz. Ancaq son 4 ayda bu göstəricinin kəskin artması düşünməyə əsas verir. Ermənistandan əhalinin kütləvi qaçışının birinci səbəbi iqtisadi amillə bağlıdır. Ölkənin işğalçı siyasəti onu belə acınacaqlı iqtisadi vəziyyətə salıb. İkinci səbəb müharibə faktoru ilə bağlıdır. Ailələr öz ovladlarının onlara lazım olmayan müharibədə həlak olmasını, konkret olaraq Qarabağda xidmət etməsini istəmirlər. Bu səbəbdən də övladlarını kütləvi şəkildə ölkədən qaçıranlar var. Ancaq son aylarda bu rəqəmin kəskin artması Paşinyan və onun etdiyi inqilab faktoru ilə bağlıdır. Ölkədə baş verən "məxməri inqilab"dan sonra xaricdə özlərinə yer tapa bilməyən ermənilər kütləvi şəkildə ölkəyə axın etdi. Onlar elə bilirdilər ki, Paşinyan fərqli Ermənistan quracaq. Amma son il ərzində aldandıqlarını görüb, vəziyyət daha da acınacaqlı hal aldığına görə yenidən mühacirəti məqbul saydılar.

*"Son aylarda bu rəqəmin kəskin artması Paşinyan və onun etdiyi inqilab faktoru ilə əlaqəlidir"*

Hələ 2019-cu ilin əvvəllərində həmin vaxt Baş nazir vəzifələrini icra edən Nikol Paşinyan özünün "Facebook" səhifəsində ölkədən gedənlərin sayı barədə yazı yazıb. Yazıb ki, 2018-ci il yanvarın 1-dən dekabrın 25-nə qədər Ermənistanı tərk edənlərlə həmin dövr ərzində Ermənistana gələnlərin sayı arasında fərq plyus 20 713 təşkil edib. Onların daha çox Rusiyaya üz tutması orada ucuz işçi qüvvəsi kimi istifadə olunmaları ilə bağlıdır. Bu amil bir daha Ermənistandakı vəziyyətin nə dərəcədə acınacaqlı olmasının bariz nümunəsidir.

**Paşinyan hakimiyyəti təəssüf ki, belə mənzərədən nəticə çıxarmaq istəmir. Əksinə, işğal siyasətlərini davam etdirməklə, ölkə əhalisinin vəziyyətini daha da ağırlaşdırırlar. Belə davam etsə, bir neçə ildən sonra Ermənistandakı demoqrafik vəziyyət daha acınacaqlı hal alacaq".**

***Məhəmmədəli QƏRİBLİ***

**Vaşinqtonda yerləşən Beynəlxalq Siyasət Mərkəzinə bağlı olan və ABŞ-ın təhlükəsizlik xərclərini araşdıran "Security Assistance Monitor" proqramının yaydığı məlumata görə, ABŞ Prezidenti Tramp 2018-2019 maliyyə ili üçün Azərbaycana 100 milyon dollardan bir qədər artıq pul ayırıb.**



# Ermənilər özləri fakt açır - ABŞ Azərbaycana 100 milyon, Ermənistana cəmi 7 milyon dollar...

## *Azad İsazadə: "Bu vəsaitlə biz ABŞ-dan nə silah, nə də hücum texnikası ala bilirik"*

Rəsmi açıqlamalara görə, ABŞ-ın "Caspian Guard" proqramı çərçivəsində Azərbaycanla yanaşı, Qazaxıstana da yardımlar edilir. Sərhədlərdə təhlükəsizliyin təminatını artırmaq, terrorizm təhdidlərinin qarşısını almaq və onlardan qorunmaq, kütləvi qırğın silahlarının yayılmasına mane olmaq, narkotrafik, insan alveri və digər transmilli təhdidlərlə mübarizəni daha da aktivləşdirmək üçün Bakıya yardım göstərilir.

Sözügedən 100 milyon dollar Azərbaycanın cənub sərhədinin gücləndirilməsinə yönəlib. Oraya tikinti qurğuları, elektronik cihazlar, rabitə və nəqliyyat vasitələri, izləmə texnologiyaları və s. daxildir. Bir qədər məbləğ də Xəzərdə təhlükəsizliyə yönəlib.

Məlumata görə, 2018-ci ildə hərbi-müdafiə yardımı qismində Ermənistana 4,2 milyon dollar ayıran ABŞ bu il həmin məbləği 2,8 milyona endirib. 2020-ci ildə isə Ermənistana 2,1 milyon dollar veriləcək. Beləliklə, bu məqsədlə Ermənistana 2018-2019-cu illərdə 7 milyon dollar ayrılıb.

Bu arada erməni tərəfi bütün bunları böyük narahatlıqla izləyir. Erməni politoloq Narek Minasyan deyib ki, respublikaçı Tramp administrasiyası xarici siyasət çərçivəsində dəyərləri deyil, iqtisadi ticarət amillərini prioritet hesab edir. Bu baxımdan da Ermənistanın iqtisadi cəlbediciliyi təəssüf ki, o qədər də böyük deyil: "Bu həcmdə yardım narahatedicidir və 2018-ci il ərzində eyni layihə çərçivəsində Ermənistana edilən yardım 4,2 milyon dollar təşkil edib, 2019-cu il üçün isə 2,8 milyon dollar nəzərdə tutulub. Hər iki tərəfə ayrılan maddi yardımın böyük miqdarda fərqi yalnız İran amili ilə bağlı ola bilər".

O qeyd edib ki, Azərbaycana edilən yardımın həcminin artırılması ABŞ-da fəaliyyət göstərən Azərbaycan lobbisinin səylərinin nəticəsidir: "Azərbaycan lobbisi istənilən üsulla "Azadlığa dəstək aktı"nın 907-ci qətnaməsindən yankeçmə yollarını axtarır".

*"Azərbaycanın, ümumiyyətlə, qonşu ölkələrlə sərhədi Ermənistanla müqayisədə daha çoxdur"*

Bütün hallarda, hərbi-müdafiə yardımı qismində hər iki ölkəyə bu məqsədlə edilən yardımlar arasında fərqi ekspertlər necə dəyərləndirirlər? Ermənilər bundan niyə narahatdırlar?

Sözügedən məsələni şərh edən hərbi ekspert Azad İsazadə bununla bağlı bir sıra məqamlara aydınlıq gətirdi: "Bu vəsaitlə biz ABŞ-dan nə silah, nə də hücum texnikası ala bilirik. Burada söhbət müdafiə və təhlükəsizlik sisteminin möhkəmləndirilməsindən, bununla bağlı avadanlıqların alınmasından gedir. Daha dəqiq desək, sərhədlərin möhkəmləndirilməsi nəzərdə tutulur. Əsasən cənub sərhədləri olmaqla, ümumiyyətlə, sərhədlərin möhkəmləndirilməsindən söhbət gedir. Niyə bu məqsədlə bizə Ermənistandan çox vəsait ayrılıb? Bunun səbəbləri var. Əvvəla Azərbaycanın İranla sərhədi daha böyükdür. İki ölkə arasında sərhədin uzunluğu 618 kilometrdir. Azərbaycanın, ümumiyyətlə, qonşu ölkələrlə sərhədi Ermənistanla müqayisədə daha çoxdur. Başqa bir tərəfdən, Azərbaycanın Xəzər dənizi ilə sərhədləri var. Beş Xəzəryanı dövlətdən biri Azərbaycandır. Digər tərəfdən, bizim İranla düşmənçiliyimiz yoxdur, amma periodik olaraq bu ölkə cürbəcür problemlər yaradır. Bəzi İran siyasiləri Azərbaycanı itirdikləri şimal əyaləti kimi təqdim edirlər. İranda yaşayan azərbaycanlılarla bağlı problemlər yaranır və biz məcbur olub buna reaksiya veririk. Ermənistana gəldikdə isə, bu ölkənin İranla sərhədi çox azdır. Bununla yanaşı, Ermənistan İranı özünə müttəfiq hesab edir. Bu günlərdə ABŞ-da səfərdə olan Ermənistanın parlament spikeri açıq şəkildə bəyan etdi ki, İrana qarşı sanksiyalar Ermənistana şamil olunmamalıdır. Hesab edirəm ki, bu amilin də rolu var".

***Vidadi ORDAHALLI***

# Naxçıvanda Türkiyənin hərbi bazası - Ermənistanda yeni xof...

**Son günlər Ermənistan KİV-i Türkiyənin Naxçıvanda hərbi fəallığını artırdığına dair çeşidli məlumatlar tirajlayır. Hiss olunur ki, Ermənistan Türkiyənin Azərbaycanın həmin ayrılmaz hissəsindəki istənilən hərəkətindən ciddi narahatlıq keçirir. İndi də onlar iddia etməyə başlayıblar ki, Türkiyə xarici ölkələrdəki sayca üçüncü hərbi bazasını Naxçıvanda açmaq istəyir.**



Bu məlumatı Ermənistan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru Ruben Safrastyan verib. O deyib ki, Türkiyənin Sudan və Qətərdə belə bazaları mövcuddur: "Türkiyə də Qafqazdakı aktivliyini artırmasını bunda görür. İstəyir ki, Gümrüdəki rus hərbi bazasına alternativ yaratsın. Bunu edəcək, çox az vaxt qalıb". Erməni alim bunu həm də onunla əsaslandırır ki, Türkiyə Suriya və İraqda istədiyini ala bilməyəcəyi təqdirdə, öz regional liderliyini qorumaq üçün Cənubi Qafqazda aktivlik göstərməyə başlayacaq.

Erməni alimin Türkiyənin yaxın vaxtlarda Naxçıvanda hərbi baza açacağı ilə bağlı dediklərini nə dərəcədə əsaslı saymaq olar? Politoloq Nəzakət Məmmədova "Bakı-Xə-

## *Nəzakət Məmmədova: "Azərbaycan Qoşulmayanlar Hərəkatının üzvüdür, bu onun hər hansı hərbi bloka qoşulmaq, ərazisində hərbi baza saxlamaq istəyinin olmadığını göstərir"*

bər"ə bildirdi ki, bu fikirlərlə qətiyyən razılaşmaq olmaz: "Bu, Türkiyə-Rusiya münasibətlərindən narahat olub qızışdırıcı mövqe tutan erməni cəfəngiyyatından başqa bir şey deyil. Əvvəla Azərbaycan Qoşulmayanlar Hərəkatının üzvüdür, bu onun hər hansı hərbi bloka qoşulmaq, ərazisində hərbi baza saxlamaq istəyinin olmadığını göstərir. Digər tərəfdən, hazırda Türkiyə ilə Rusiya arasında müttəfiqlik münasibətləri var, Türkiyənin Rusiyaya qarşı balans yaratmaq üçün Naxçıvanda hərbi baza yaratmaq zərurəti yoxdur. Türkiyə NATO üzvüdür, NATO Cənubi Qafqazı öz məsuliyyət zonası hesab etmir. Gürcüstanın Alyansa üzvlüyü isə Cənubi Qafqaz yox, Qara dəniz akvatoriyasının, Ukrayna da daxil olmaqla, NATO üzvlüyünə namizədliyi çərçivəsində nəzərdən keçirilir. NATO Cənubi Qafqaza doğru irəliləyərsə, bu, Alyansın İran sərhədinə dayanmasıdır. Türkiyənin timsalında NATO-nun Rusiya və İranın sərhədlərinə - Naxçıvana ekspansiyası mümkün deyil. Erməni yalanı burada da bəsit şəkildə üzə çıxır. Türkiyənin xaricdə 3 deyil, 12 hərbi bazası var. Onlardan biri də 1974-cü ildən bəri Şimali Kiprdədir. Yunan Kipri AB-yə üzv qəbul edildikdən sonra onun Türkiyə ilə Kiprdəki baza ucbatından problemləri yaranıb, çünki Kiprin şimal və cənubu, ümumilikdə, AB ərazisi sayılır, Türkiyə isə Avropa ərazisində qanunsuz qoşun saxlamış hesab olunur".

Politoloqun sözlərinə görə, bu, Türkiyənin AB-yə üzvlüyündə problem yaradır: "Belə bir şəraitdə AB və ABŞ arasında fikir ayrılığına səbəb olan İranın şimal sərhədi yaxınlığında - Naxçıvanda Türkiyənin baza yaratması onu Rusiya, İran, ABŞ və AB ilə qarşı-qarşıya gətirər. Ölkə daxilində bəzi problemlərin üzə çıxdığı - AK Partidən tanınmış siyasilərin ayrılıb partiya yaratmaq istiqamətində fəaliyyəti, iqtisadi inkişaf göstəricilərinin zəifləməsi, suriyalı mühacirlərə sığınacaq verilməsi səbəbindən Ərdoğanın reytinqinin zəiflədiyi bir zamanda Türkiyənin ABŞ, AB, Rusiya və İranla qarşı-qarşıya gəlməsi inandırıcı deyil".

***Məhəmmədəli QƏRİBLİ***

# Jirinovskinin Ermənistana mesajları - Ukraynalıların gününə düşəcəksiniz...

**Məlum olduğu kimi, Rusiya Liberal Demokratik Partiyasının sədri Vladimir Jirinovski deyib ki, Vladimir Zelenski Ukraynanın sonuncu prezidenti olacaq: "Bu, sonuncu seçkilər idi. 2024-cü ildə orada heç bir seçki olmayacaq. Ukrayna adlı dövlət də qalmayacaq. Siz Yaxın Şərqdəki situasiyanı nəzərə alırsınız.**



Orada elə hadisələr başlayacaq ki, hər kəs Ukraynanı unudacaq. Hər şey III dünya müharibəsinə doğru gedir. İran Vyetnam, Şimali Koreya və Kosova deyil".

Maraqlıdır ki, Jirinovskinin Ukrayna barədə dediyi sözügedən fikirləri ermənilər özləri Ermənistana aid edirlər. Bununla bağlı erməni mətbuatında səslənən fikirlər maraq doğurur. Onlar hesab edirlər ki, Jirinovskinin Ukrayna barəsində səsləndirdiyi təhdid xarakterli fikirlər Ermənistana işarədir. Sözügedən məsələ ilə bağlı erməni mətbuatı yazır ki, Jirinovskinin Ukrayna ilə bağlı söylədiklərinin hamısı Ermənistan üçün aktualdır. Onların qənaətincə, ilk baxışdan LDPR rəhbəri son yarım ildə Ermənistan barədə heç nə demirdi. Ümumiyyətlə, son dövrlər Ermənistan və "Artsax" haqqında az danışmağa başlayır. Bir vaxtlar bu barədə daha yüksək səslə danışırdı. Sonra yalnız danışıqların tezliyini deyil, tonunu da dəyişdi. Erməni mətbuatı iddia edir ki, Jirinovskinin bu kimi fikirlərinin arxasında imperiya düşüncələri dayanır. Bu da Rusiyanın yeni ərazilər hesabına böyüməsi və vətəndaşları hesabına artırılmasından

## *Elşən Manafov: "Hazırkı iqtidar Kremli məyus etsə də, Rusiya Cənubi Qafqaz və Yaxın Şərqlə bağlı planlarında..."*

ibarətdir.

Erməni mətbuatının iddiasına görə, Ukrayna imperialist Jirinovskinin nöqteyi-nəzərindən dərsləri öyrənmək istəmir. Buna görə də Jirinovski Ukraynanın böyük bəlalarını proqnozlaşdırır.

Bütün bunlardan çıxış edərək erməni mediası belə qənaətə gəlib ki, onun Ukrayna ilə bağlı dedikləri hər şey Ermənistan üçün də aktualdır. Guya Jirinovskinin timsalında Putin keçmiş SSRİ dövlətlərinin azadlıq hüququna malik olmadıqlarını açıq şəkildə bəyan edir.

Yazıda o da qeyd olunur ki, bununla artıq Gürcüstanı və Ukraynanı öldürməyə hazır olduqlarını göstərdilər: "Bunu fəal şəkildə Belarusa işarə etdilər. Bunu mütləq bizə də deyəcəklər. Jirinovski mütləq spikerlərin ön cərgəsində olacaq. Bunu çox yaxında deyəcəyi tamamilə mümkündür. Baxmayaraq ki, əslində o, artıq ölkəmizin vətəndaşlarını Rusiya vətəndaşı olduğunu bəyan edir. Bir çox hallarda bəzi ekspertlər Jirinovskinin dili ilə Kremlin mövqeyini ifadə edirlər. Ukraynadakı seçkilər bu ölkənin Rusiyanın təsir dairəsindən çıxmasına dəvət edib".

### *"Ermənilər bunun fərqində olduqları üçün narahatdırlar"*

Bu baxımdan ermənilərin bununla bağlı iddialarını və narahatlıqlarını ekspertlər necə dəyərləndirirlər?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Elşən Manafov bununla bağlı bir sıra məqamlara toxundu: "Əvvəla Jirinovski açıq-aşkar Rusiyanın MDB məkanındakı rolunun və əvvəlki mövqelərinin qaytarılmasının tərəfdarı olduğunu bəyan edir. Bir çox hallarda bəzi ekspertlər Jirinovskinin dili ilə Kremlin mövqeyini ifadə edirlər. Ukraynadakı seçkilər bu ölkənin Rusiyanın təsir dairəsindən çıxması üçün növbəti addım idi. Əlbəttə, bu, Ukrayna xalqının azad seçimi və iradəsi idi. Jirinovskinin dedikləri ilə bağlı Ermənistandakı narahatlığa gəldikdə isə, bir sıra məqamlara diqqət etmək lazımdır. Jirinovski Ermənistanın Rusiyanın strateji müttəfiqi olmasını həmişə dilə gətirib. Hazırkı iqtidar Kremli məyus etsə də, Rusiya Cənubi Qafqaz və Yaxın Şərqlə bağlı planlarında strateji bölgə kimi heç vaxt Ermənistandan imtina etməz. Ermənilər bunun fərqində olduqları üçün narahatdırlar. Nəzərə alsaq ki, Rusiya Ermənistanda hərbi baxımdan iştirak edir, yəni bu ölkədə əsgəri qüvvəsi var, o baxımdan Ermənistanı istənilən vaxt Rusiya ram edə bilər. Ancaq Ermənistanın bir dövlət kimi aradan qalxa biləcəyi ilə bağlı amillər xüsusən "Daşnaksütyun" partiyasını narahat edir.

Son vaxtlar Türkiyənin Rusiya ilə yaxınlaşması, NATO ilə münasibətlərdə yaşanan gərginlik Türkiyənin MDB məkanında nüfuzunun artmasından xəbər verir. Ermənistanın bu yöndə narahatlığı artmaqdadır. Hətta S-400 raketlərinin Türkiyə tərəfindən alınması belə, Ermənistandakı bəzi dairələri narahat edir. Bu mənada bəzi dairələr narahatdırlar ki, bu yaxınlaşma Ermənistanın maraqlarına qarşı olacaq".

***Vidadi ORDAHALLI***

# Bu aralarda Ermənistanın Gürcüstana yaxınlaşmaq səylərinin şübhəli və gizli tərəfləri...

**Son vaxtlar Gürcüstan-Azərbaycan münasibətlərində bəzi təzahürlərin ortaya çıxması fonunda, Gürcüstan-Ermənistan münasibətlərində yaxınlaşma meylləri var. Məsələ ondadır ki, "Keşikçidağ" monastırı ətrafında Gürcüstandakı bəzi dairələr müəyyən təxribatlara əl atdılar.**




## *Məhəmməd Əsədullazadə: "Mnatsakanyanın Tiflisə səfər etməsi əsasən Azərbaycanla Gürcüstan arasında baş verən müəyyən problemlərdən istifadəyə yönəlib"*

Eyni zamanda, monastırla bağlı əsası olmayan ərazi iddiaları səsləndirildi. İstədilər ki, Azərbaycanı təxribata çəkib iki ölkə arasında nifaq salsınlar. Ancaq onların bu yöndə səyləri nəticə vermədi.

Sanki Ermənistan yaranan vəziyyətlə bağlı fürsət gözləyirmiş kimi, Gürcüstanla bu aralarda yaxınlaşmağa səy göstərir. Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyanın Gürcüstana rəsmi səfəri başlayıb. İkigünlük səfər çərçivəsində Mnatsakanyan Tiflisdə Gürcüstan xarici işlər naziri David Zalkaliani, Baş nazir Mamuka Baxtadze, spiker Arçil Talakvadze ilə görüşəcək. Onun, həmçinin, Gürcüstandakı erməni icmasıyla da görüşü nəzərdə tutulub.

Maraqlıdır, Ermənistanın Gürcüstana yaxınlaşmaq səylərinin arxasında nə dayanır?

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, bütün bunların arxasında Ermənistanın müəyyən məqsədləri var: "Əvvəla müəyyən təxribatlara baxmayaraq, Azərbaycanla Gürcüstan arasında strateji tərəfdaşlıq əlaqələri inkişaf edir. İki ölkə Avropanın enerji diversifikasiyasında mühüm rol oynayır və müştərək nəqliyyat sisteminin iştirakçılarıdır. Hazırda bu əməkdaşlıq hər iki tərəfin maraqları çərçivəsində davam edir. "Keşikçidağ" monastırı ətrafında yaranan gərginlik artıq öz əvvəlki məcrasına qayıdır. Azərbaycan prinsipial şəkildə öz maraqları kontekstində, bu məsələ ətrafında Tiflislə normal çərçivədə əməkdaşlığın inkişaf etdirilməsində maraqlıdır. Ancaq iki ölkə arasında strateji tərəfdaşlığa zərbə vurmağa çalışan Ermənistan yenidən fəallaşıb. Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyanın Gürcüstana səfərində anti-Azərbaycan siyasəti ortaya qoymasını istisna etmirəm. Mnatsakanyanın Tiflisə səfər etməsi əsasən Azərbaycanla Gürcüstan arasında baş verən müəyyən problemlərdən istifadəyə yönəlib. Həmçinin, Azərbaycan əleyhinə rəsmi Tiflislə yeni plan üzrə çalışmaq üçün danışıqlar aparmasını istisna etmirəm. Ermənistan tərəfi çalışacaq ki, rəsmi Tiflislə əməkdaşlığı dərinləşdirsin və bu əməkdaşlıq Azərbaycan əleyhinə yönəlsin. Rəsmi Bakı Mnatsakanyanın səferini diqqətə almalı, Azərbaycan əleyhinə hər hansı proses baş verəcəksə, dərhal buna reaksiya verilməlidir. Erməni tərəfi yenidən "Keşikçidağ" məsələsini rəsmi Tiflislə konfidensial olaraq müzakirə edəcək. Həmçinin, Abxaziya dəmir yolunun açılışı və Rusiyadan idxal olunan buğdanın quru yolla Ermənistana daşınması müzakirə olunacaq.

*"Ermənistan hər vəchlə çalışır ki, iki ölkə əlaqələrini üçüncü əl vasitəsilə sabotaj etsin"*

Ermənistan hər vəchlə çalışır ki, Azərbaycanla Gürcüstanın əlaqələrini üçüncü əl vasitəsilə sabotaj etsin. Hətta Gürcüstanda yaşayan ermənilərdən bu məsələdə alət kimi istifadə edirlər. Hesab edirəm ki, Ermənistanın bu cəhdləri boşuna olacaq. Gürcüstanla Azərbaycan arasında dostluq və strateji əməkdaşlıq formatı davam edəcək".

***Vidadi ORDAHALLI***

# Ermənilər Fransanı Cənub-Şərqi Asiya ölkələrinə satır - separatçı şəhərləri indi də əks istiqamətdə "nikahlamaq" istəyirlər...

**Məlum olduğu kimi, Fransa məhkəmələri ölkənin müxtəlif şəhərləri və Dağlıq Qarabağ separatçıları arasında imzalanmış "sazişləri" bir-bir ləğv edib. İlk əvvəl mayın 29-da Serji-Pontuaz şəhərinin inzibati məhkəməsi Arnuvil şəhəri ilə işğal olunmuş Xocavənd arasındakı "xartiyanı" qüvvədən düşmüş hesab edib.**




## *Seyid Camal Əzimbəyli: "Separatçıların bu yöndə səyləri məğlubiyyətə məhkumdur"*

Daha sonra Fransa məhkəməsi bu il iyunun 11-də yerli bələdiyyələrin separatçı rejimlə imzaladığı daha 4 "xartiyanı" etibarsız sayıb. Məhkəmə bəhs olunan sənədlərin Fransanın üzərinə götürdüyü öhdəliklərə və ATƏT-in Minsk Qrupunun həmsədri olaraq apardığı xarici siyasətə zidd olduğunu göstərib.

Bu sahədə məğlubiyyətə uğrayan Ermənistan indi də digər ölkələrlə bu cür əlaqələr qurmaq istəyir. Erməni mətbuatının yaydığı məlumata görə, Avstraliyanın Rayd şəhərinin bələdiyyə şəhər şurası Xankəndi ilə dotluq münasibətlərini yekdilliklə təsdiqləyib. Bu da guya iki şəhər arasında bir sıra sahələrdə əməkdaşlığın qurulmasına hüquqi əsas verir. O da qeyd edilir ki, sözügedən qərarın indi verilməsi təsadüfi deyil. Guya separatçı rejimin "xarici işlər naziri" Masis Mayilyanın başçılıq etdiyi nümayəndə heyətinin Avstraliyaya səfəri ərəfəsində belə bir qərar qəbul edilib.

Onu da qeyd edək ki, ötən ilin mayında Avstraliyanın Rayd şəhər şurası Azərbaycanın işğal altındakı torpaqlarında qondarılmış separatçı-terrorçu qurumun "müstəqilliyinə" dəstək verən qətnamə qəbul edib. Sonra bu məsələ gündəmdən çıxdı. İndi də ermənilər Fransada üzləşdikləri məğlubiyyətin əvəzini digər qitələrdəki şəhərlər vasitəsilə çıxmaq istəyirlər. Separatçı qurumun şəhərlərini digər ölkələrin şəhərləri ilə "qardaşlaşdırmaq" istəyirlər. O üzdən, onların bu cəhdlərini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, separatçıların bu yöndə səyləri məğlubiyyətə məhkumdur. O bunu bir sıra arqumentlərlə əsaslandırdı: "Çünki Fransa kimi erməni lobbisinin güclü olduğu ölkə Dağlıq Qarabağ separatçıları ilə imzalanmış "sazişləri" ləğv edirsə, o zaman kim zəmanət verə bilər ki, Avstraliya məhkəmələri də analoji addım atmayacaqlar? Təbii ki, bir gün Avstraliya da bu addımı atacaq. Erməni separatçıları elə bilirlər ki, Avstraliya uzaq bir materikdə yerləşdiyi və Azərbaycanla sıx əlaqələrə malik olmadığı üçün, istəklərinə çata biləcəklər. Yəni işğal altındakı Azərbaycan şəhərlərini erməni adı altında digər ölkələrin şəhərləri ilə yaxınlaşdıracaqlar.

*"Fransa məhkəmələrinin çıxardığı qərarları bir gün Avstraliya məhkəmələri də verəcək"*

Düşünürəm ki, erməni separatçılarının bu yöndə səyləri fiaskoya məhkumdur. Ona görə ki, Azərbaycan Avstraliya ilə diplomatik danışıqlar aparıb bunun qarşısını ala bilər. O üzdən, ermənilər çox sevinməsinlər. Fransa məhkəmələrinin çıxardığı qərarları bir gün Avstraliya məhkəmələri də verəcək".

***Vidadi ORDAHALLI***

**Cari ilin ötən dövrü ərzində olan vəziyyət çox aydın şəkildə nümayiş etdirir ki, dünya bazarlarında neftin qiyməti Azərbaycanın əvvəllər müəyyən etdiyi həddə çox yaxın olub. Xatırladaq ki, bu il dövlət büdcəsində neftin qiyməti bir barrel üçün 60 dollar müəyyən olunub. Amma ötən dövr ərzində bəzi hallarda neftin qiyməti 75 dollara belə yaxınlaşıb.**

# Dünya neft bazarında Azərbaycanın qiymət siyasəti özünü tam doğruldur...




Ümumiyyətlə, ilin ötən dövrü ərzində neft qiymətləri 60 dollardan aşağı düşməyib. Əksinə, bu həddən yuxarı olan qiymətlər Azərbaycanın neft gəlirlərinin nəzərdə tutulduğundan daha çox olmasına rəvac verib.

Hazırda dünya bazarlarında satılan Azərbaycan xam neftinin qiyməti 66 dollara yaxındır. İlin sonuna kimi qiymətlərin ən azı bu həddə qalması gözlənir. Bunu Beynəlxalq Valyuta Fondunun proqnozları da təsdiq edir. Qurum 2019-2020-ci illər üçün dünyada neftin qiymətlərinə dair proqnozunu neft markalarından asılı olaraq bir barrel üzrə müvafiq şəkildə 6,4 dollar artıraraq 65,52 dollara və 4,9 dollar artıraraq 63,88 dollara çatdırıb. Beynəlxalq Valyuta Fondunun "World Economic Outlook" hesabatında bu xüsusda bildirilir: "2018-ci ildə bir barrel neftin orta qiyməti 68,33 dollar olub. Bazar konyunkturuna əsasən 2019-cu ildə qiymət 65,52 dollar, 2020-ci ildə isə 63,88 dollar məbləğində ehtimal olunur".

Qeyd edilən rəqəmlər cari il və ondan sonrakı dövr ərzində neft qiymətlərinin Azərbaycanın istədiyi həddə olacağını göstərir. Hesab edilir ki, "qara qızıl"ın qiyməti Yaxın Şərqdə davam edən gərginlik, ABŞ-ın xam neft ehtiyatlarının azalması və digər narahatlıqlar fonunda bahalaşır. Eləcə də İran və Britaniya arasında neft tankeri ilə bağlı insident bölgədə gərginliyin artmasına səbəb olur. Bütün bunlar neftin qiymətinin artan istiqamətli dəyişməsinə səbəb olan amillərdir. Hadisələrin gedişi, əslində İran və Britaniya arasında yaranan qalmaqallar üzündən neftin qiymətlərini daha sürətlə bahalaşdıra bilər. Çünki məsələyə ABŞ da qarışıb və qalmaqal fonunda Hörmüz boğazına ələvə hərbi qüvvələr cəmləşdirir. Belə vəziyyətdə İran yenidən boğazı bağlaya biləcəyi ilə hədələyir. İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Məhəmməd Baqiri bildirib ki, Hörmüz boğazını bağlaya bilərlər. Baş Qərargah rəisi deyib ki, kimsə Hörmüz boğazının təhlükəsizliyinə ziyan vurmadıqca, İran boğazın təhlükəsizliyini təmin edəcək: "İran öz neftini ixrac edəcəksə, digərləri də öz neftini ixrac edəcək. İranın Hörmüz boğazını bağlamaq niyyəti və iradəsi olarsa, bunu açıq-aşkar elan edəcək, var gücü ilə tam şəkildə bunu həyata keçirəcək".

ABŞ-da mənzillənmiş "Schork Report" yazır ki, bu halda neftin qiyməti qısa müddətdə 100 dollarlıq həddi keçəcək. Qurum ekspertlərinin fikrincə, geosiyasi risqlər yenidən neft bazarına qayıdıb: "İranla yaşanan gərginliklə yanaşı, məsələyə Çin amili də təsir edir. Xam neftə Çindən gələn tələbat da artmaqdadır. Məhz bu durumda İrandakı vəziyyət nəzarətdən çıxsa və ixracatda fasilələr yaransa, bunun qlobal neft qiymətlərinə nəhəng təsiri olacaq. İran neftinin ixracı tam dayanarsa və Hörmüz boğazından neftin keçişinin qarşısı alınarsa, neftin bir barrelinin qiyməti 100 dolları qısa müddətdə aşa bilər. Qeyd etmək lazımdır ki, dünya neft bazarına çıxarılan ən çox neft məhz bu boğazdan keçir. İran bu addımı atarsa, hərbi münaqişələrə gətirib çıxara bilər. Bu halda isə neft qiymətlərinin daha da bahalaşacağının şahidi ola bilərik. Ümumiyyətlə, bu il ərzində neft bazarında qlobal bank və maliyyə sistemində müəyyən təlatümlər ola bilər. OPEC-in gedişləri də qiymətlərə təsir edir. Neft hasilatının məhdudlaşdırılması üzrə razılaşma qiymətlərin artımına xidmət edir, bu isə neft hasil edən ölkələrin büdcələrinə müsbət təsir göstərir". Bəzi analitiklərə görə, ABŞ-İran gərginliyi nəticəsində, xüsusən Hörmüz boğazının bağlanması təhlükəsi neftin qiymətini 200 dollara qədər qaldıra bilər. İndilikdə isə dünya neft bazarının əsas tədarükçülərinin yerləşdiyi bölgədə hərbi qarşıdurma ehtimalı getdikcə artmaqdadır. Bu qarşıdurmaların mümkün meydanı kimi isə Hörmüz boğazı çıxış etməkdədir. Bundan əlavə, "OPEC plus" formatı da məsələyə müsbət təsir edir. Xatırladaq ki, Vyanada "OPEC plus" Nazirlərinin Birgə Monitorinq Komitəsinin 15-ci iclasında mövcud kvotalara dəyişiklik edilmədən neft hasilatının azaldılmasına dair "Əməkdaşlıq Bəyannaməsi"nin icra müddətinin daha 9 ay uzadılması reallaşdırılıb. Bütün bunlar qiymətlərə birbaşa təsir edir.

Britaniyalı ekspert Slavomir Raşevski bildirir ki, indi OPEC-də ən böyük neft hasilatçısı olan Səudiyyə Ərəbistanı, bütün siyasi təzyiqlərə baxmayaraq, hasilatı artırmağa meylli deyil: "Üstəlik, OPEC bu quruma daxil olmayan hasilatçılarla, ilk növbədə Rusiya Federasiyası ilə neft hasilatı kvotalarını əlaqələndirməklə məşğuldur. Neftin qiymətinin artım tendensiyasının daha nə qədər davam edəcəyinə gəlincə, bu iki amildən asılıdır. Birincisi, sanksiyalar səbəbindən cəlbediciliyini itirən İran neftinin azalması ilə yaranan boşluğun bazarda nə qədər tez doldurulacağı, ikincisi, ABŞ-la Rusiya arasındakı qarşıdurmanın nə qədər irəli gedəcəyi mühüm əhəmiyyət kəsb edir. Bu amillərin hər ikisi geosiyasətlə və gələcək perspektivlə əlaqədardır. Aydındır ki, Hörmüz boğazında baş verənlər də prosesə daha çox təsir etməyə başlayır". Neft hasilatçısı olan Azərbaycan üçün mövcud qiymətlər əlverişlidir. Çünki hazırkı qiymətlər Azərbaycanın valyuta ehtiyatlarının artmasına, büdcə proqnozlarına tam əməl edilməsinə şərait yaradır. Hazırda ölkənin tədiyyə balansı müsbətdir, valyuta bazarında tam sabitlikdir. Qiymətlərin bu həddə qalması makroiqtisadi sabitliyin də davamlı olması deməkdir.

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Ermənistanın dünyada himayədarlarını itirməsi Qarabağ münaqişəsinin həllini tezləşdirəcək



**Müstəqilliyi formal xarakter daşıyan Ermənistanın əcnəbi himayədarlar olmadan mövcudluğunu davam etdirməsinin mümkünsüzlüyü heç kimə sirr deyil. Məhz bu səbəbdəndir ki, Rusiya və Qərb ölkələrinin Ermənistan siyasətinin sərtləşməsi fonunda İrəvanda ciddi həyəcan təbili çalınır.**

Burada hesab edilir ki, baş verənlər Ermənistanın sosial-iqtisadi tənəzzülünü sürətləndirməklə yanaşı, Dağlıq Qarabağ münaqişəsi ilə də bağlı İrəvanın Bakıya müqavimət imkanlarını tükəndirəcək.

Hazırda proseslərin inkişaf axarı göstərir ki, İrəvanın istər Rusiya, istərsə də Qərbdə özünə dəstək tapmaq cəhdləri iflasa uğramaqdadır. Təbii ki, burada Azərbaycan diplomatiyasının da özünəməxsus rolu var. Bunu erməni politoloq Narek Minasyan da təsdiq edir. O hesab edir ki, Ermənistanda məlum inqilabdan sonra ABŞ-ın Ermənistana gözlənilən dəstəyi verməməsində Azərbaycan tərəfinin addımları mühüm əhəmiyyət kəsb edib. Bundan başqa o vurğulayır ki, Azərbaycan iqtisadi cəhətdən də ABŞ üçün mühüm əhəmiyyətə malikdir və bu səbəbdən Ermənistan daha sürətlə arxa plana keçir. Ekspert açıq şəkildə vurğulayır ki, Respublikaçı Tramp administrasiyası xarici siyasət çərçivəsində dəyərləri deyil, iqtisadi ticarət amillərini prioritet hesab edir. Bu baxımdan da, Azərbaycandan fərqli olaraq, Ermənistanın iqtisadi cəlbediciliyi o qədər də böyük deyil. Onun sözlərinə görə, ABŞ Müdafiə Nazirliyi tərəfindən həyata keçirilən "Tərəfdaşların imkanlarının möhkəmləndirilməsi" layihəsi çərçivəsində Azərbaycan 2018-ci maliyyə ili ərzində 58,6 milyon dollar alıb, 2019-cu maliyyə ili ərzində isə 42,9 milyon dollar vəsait alacağı gözlənir: "Bu həcmdə yardım narahatedicidir və 2018-ci il ərzində eyni layihə çərçivəsində Ermənistana edilən yardım 4,2 milyon dollar təşkil edib, 2019-cu il üçün isə 2,8 milyon dollar nəzərdə tutulub. Azərbaycana edilən yardımın həcminin artırılması ABŞ-da fəaliyyət göstərən Azərbaycan lobbisinin səylərinin nəticəsidir. Azərbaycan lobbisi istənilən üsulla Azadlığa Dəstək Aktının 907 qətnaməsindən yan keçmə yollarını axtarır".

Ermənistan parlamentinin sədri Ararat Mirzoyanın ABŞ-a səfəri və İran məsələsindəki təzyiqlərlə bağlı verdiyi bəyanata münasibət bildirən Minasyan qeyd edib: "Ermənistan-ABŞ ikitərəfli münasibətlərinin məntiqində müəyyən dəyişikliklərin baş verməsinə zərurət var. Buna görə də parlament diplomatiyası müəyyən əhəmiyyətə malikdir. Tramp administrasiyasının həyata keçirdiyi xüsusiyyətlər, Ermənistan hakimiyyətinə qarşı irəli sürdüyü prioritetlər Ermənistan-ABŞ gündəliyinə yenidən baxılması zərurətini açıq-aydın ortaya qoyub. Tramp administrasiyasının müsbət münasibətinə nail olmaq üçün görüləcək işlər çoxdur. Birmənalı şəkildə müsbət və ya mənfi münasibət haqqında danışmaq o qədər də doğru deyil. Məsələ sırf siyasidir, indiki mərhələdə bir tərəfdən ABŞ-ın Respublikaçılar, digər tərəfdən Demokratlar partiyasının dəyərlərinin aliliyi və siyasi prioritetləri ilə qarşılaşırıq". Politoloq hesab edir ki, bu qüvvələr üzərində erməni lobbi qurumlarının təsir səviyyəsi ilə də qarşı-qarşıya qalıblar: "Erməni lobbi qurumları müxtəlif amillərdən asılı olaraq, müqayisə üçün, məhz Demokratlarla daha çox bağlıdır. Demokratlar Konqresin Nümayəndələr Palatasında üstünlük təşkil edir. Senatda isə üstünlüyü Respublikaçılar təşkil etdiyi qeyd olunur. Respublikaçı Tramp administrasiyası xarici siyasət çərçivəsində dəyərləri deyil, iqtisadi ticarət amillərini prioritet hesab edir. Bu baxımdan da Ermənistanın iqtisadi cəlbediciliyi, təəssüf ki, o qədər də böyük deyil". Minasyan bildirir ki, belə vəziyyətdə Qarabağ məsələsində ABŞ-ın Azərbaycana tərəf meyllənməsi İrəvan üçün müsbət nəsə vəd etmir.

Real vəziyyətin təhlili göstərir ki, erməni rəsmilərinin bir-birinin ardınca ABŞ-a son səfərləri də İrəvan üçün hansısa ümidverici nəticələrə gətirib çıxarmayıb. Əksinə, belə bəlli olur ki, İran amili üzündən okeanın o tayından Ermənistana göstərilən təzyiqlər artır. Ermənistan parlamentinin sədri Ararat Mirzoyanın bu günlərdə verdiyi açıqlama da bunu tam şəkildə təsdiq etdi: "Biz, İrana qarşı sanksiyalar gündəliyinə cəlb edilməsi üçün Ermənistana təzyiq edilməməsini istərdik. Ermənistan bu cür qiymət ödəyə bilməz". Məsələ ilə bağlı "Amerikanın səsi" radiosunun erməni bölməsi Ermənistanın həqiqətən də çətin duruma düşdüyünü bildirir. Bildirilir ki, Ermənistan ABŞ-İran münaqişəsi fonunda mürəkkəb vəziyyətdədir: "Bir tərəfdən İran Ermənistanın bölgədəki azsaylı dost ölkələrindən biridir. Tehranla İrəvanın çox vacib və özəl münasibətləri var. İran sərhədi Ermənistanın dünyaya açıq iki qapısından biridir. Digər tərəfdən, Birləşmiş Ştatlar dünyanın bir çox ölkələri kimi Ermənistana görə də çox vacib tərəfdaş və dost ölkədir. Lakin ABŞ-ın öncəki hökumətləri Ermənistanla İran arasındakı yaxın münasibətə anlayışla yanaşaraq dərk edirdilər ki, Ermənistan üçün alternativ çıxış yolu olduqca azdır. Ermənistan Qarabağ münaqişəsi üzündən iki tərəfdən qonşularla blokadaya alınıb, şimaldan isə o qədər də sabit olmayan Gürcüstanla qonşudur. Coğrafi və siyasi baxımdan bu mürəkkəb şəraitdə, o cümlədən ciddi təhlükəsizlik problemləri ilə bağlı İrəvan Rusiyadan birtərfli asılı vəziyyətə düşüb. Bu mürəkkəb şəraitdə Ermənistan öz xarici siyasətini, o cümlədən iqtisadi münasibətlərini şaxələndirmək və alternativ yollar tapmaq problemi ilə üzləşir. İran bu baxımdan Ermənistan üçün həyati əhəmiyyət daşıyan tərəfdaş ölkədir. İrana qarşı baxışları ilə seçilən Donald Tramp ABŞ prezidenti seçildikdən sonra Ermənistan üçün çağırışlar daha da mürəkkəbləşərək artıb. Hakimiyyətə gəldikdən sonra İran məsələsində öz baxışlarını bölüşən bir neçə seçilmiş siyasi xadimi administrasiyasına cəlb edən Tramp, xüsusilə məlum hərbi ritorikası ilə "şahin" kimi tanınan Con Boltonu və Mayk Pompeonu cəlb edib. Bu iki şəxsin yüksək vəzifəyə təyinatında məhz İran məsələsində onların radikal mövqedə olması rol oynayıb.

İndi İrana qarşı ABŞ sanksiyaları bərpa edilib. Yeni sanksiyalar iki paket halında, müvafiq olaraq ötən ilin 7 avqust və 5 noyabr tarixlərində qüvvəyə minib. Ermənistanlı və xarici ekspertlər Ermənistan-İran münasibətləri ilə bağlı Tramp administrasiyasının mövqeyinə dair müxtəlif proqnozlar verirdilər. Amma elə bu günlərdə Vaşinqtonun Karnegi beynəlxalq sülh fondunun Rusiya və Avrasiya proqramının aparıcı elmi işçisi Pol Stronski isə son günlərdə erməni KİV-inə verdiyi müsahibələrində bildirib ki, Ermənistan-İran dostluq münasibətləri İrəvan üçün potensial problemdir və Birləşmiş Ştatlarla Ermənistan arasında ziddiyyətlərə səbəb ola bilər. ABŞ-da olan Ermənistan nümayəndə heyətinin rəhbəri Vaşinqtonda Ermənistan-İran münasibətləri və ABŞ sanksiyaları ilə bağlı ABŞ hakimiyyətinə məlum ismarıc ünvanlayırsa, bu, əlbəttə ki, ciddi düşünməyə əsas verir. Maraqlıdır, görəsən bu cür ismarıc artıq ABŞ tərəfindən təzyiq cəhdlərinin olduğunu, yoxsa hələlik İrəvanın narahatlıqlarını ifadə edir? Mirzoyanın bəyanatı ilə bağlı analitiklər haqlı olaraq bir vacib məqamı vurğulayır. İlk öncə harada və hansı dinləyici kütləsinin qarşısında Ermənistan parlament sədrinin çıxış etdiyinə diqqət yetirməyə çağırış edirlər. Başqa sözlə, Atlantik Şurasında Ermənistan parlamentinin spikeri ekspertlər müzakirəsində iştirak edirdi. Bu cür mühitdə bir qayda olaraq səmimi və azad danışmaq, o cümlədən narahatlıqların ifadə edilməsi və müxtəlif risqlərin dəyərləndirilməsi qəbul olunur. Mövzu ilə əlaqədar ABŞ-ın Haydat komissiyasının icraçı direktoru Aram Hambaryanın sözlərinə görə, bəzi əlamətlər Tramp administrasiyasının Ermənistan-İran münasibətləri ilə bağlı maksimal mövqeyini artıq aydın şəkildə göstərir. O, indiki vəziyyətin Ermənistan üçün müsbət nəsə vəd etmədiyini də etiraf edir.

Amerikalı analitik, ABŞ Dövlət Katibliyinin sabiq xüsusi müşaviri, Vaşinqtonun dünya siyasəti insitutunun professoru Pol Qobl da Ermənistan-ABŞ münasibətlərindən və Ermənistanın gələcəyindən narahatdır. O bildirir ki, Birləşmiş Ştatların indiki prezidentinin Ermənistanın mürəkkəb coğrafi vəziyyətini başa düşdüyünə dair hər hansı əlamət və ya sübut görmür. Qobl erməni KİV-inə müsahibəsində diqqətə çatdırıb ki, Tramp daima öz diqqətini bir məsələdən digər məsələyə yönləndirir və bugünədək onun siyasətini həyata keçirəcək hər hansı komandaya malik deyil: "Ehtimal edirəm ki, İranın təcrid edilməsi haqqında prezidentin bəyanatlarını bürokratiyanın əməkdaşları tərtib edir. Onlar başa salmağa çalışır ki, Ermənistan ya sanksiyalara qoşulmalıdır, ya da etibarsız əməkdaşlıq etməyən tərəfdaş kimi nəzərdən keçirilməlidir". Bütün bu qeyd edilənlər bir daha Ermənistanın ABŞ-la münasibətlərdə ciddi problemlər yaşamaqda olduğunu göstərir. Amma erməni şərhçi Qalust Qriqoryan bildirir ki, İrəvanın təkcə Vaşinqton yox, Moskva ilə də ciddi problemləri var. Bu fonda o, diqqəti Rusiya Liberal-Demokrat Partiyasının lideri Vladimir Jirinovskinin "Rossiya-1" telekanalında Ukrayna barədə çıxışına yönəldir. Həmin çıxışında Jirinovski Zelenskinin Ukraynanın son prezidenti olacağını bildirib. O, ukraynalılara Rusiyaya kömək təklifi edib: "Xilas yalnız Rusiyadadır".

İrəvanda hesab edirlər ki, Jirinovski ad çəkməsə də, bu proqnozlar Ermənistana da aiddir. Qalust Qriqoryan bildirir ki, Jirinovski Ukraynaya dərs vermək istəmir, əksinə, böyük bədbəxtliklər haqqında xəbərdarlıqlar edir: "Bu, Ermənistan üçün də aktualdır. Rusiya artıq Gürcüstanda və Ukraynada addımlar atdı. Belarusda da edəcəklər və bizə çox yaxın vaxtlarda mütləq xəbərdarlıqlar ediləcək. Artıq yeni dünya müharibəsinin olacağını əsas gətirərək, ermənilərə də Rusiya vətəndaşı olmaq təklif edilir. Axı İran Ermənistana daha yaxındır, nəinki Ukraynaya. Artıq Rusiyada Ermənistanla bağlı nələrsə nəzərdə tutulur". Bütün bunlar İrəvanın ABŞ və Rusiya kimi böyük ölkələrlə münasibətlərində ciddi problemlər yaşadığını göstərir. Belə vəziyyət isə Ermənistanın daha zəif duruma düşməsi və Qarabağ münaqişəsinin həllinin tezləşməsi ilə müşayiət olunmaq iqtidarındadır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Ecevitin 1974-cü il əfsanəvi "Kipr xidmətini" Ərbakanın adına yazanları kimlər idarə edir...

**1974-cü il iyulun 20-də Bülənt Ecevitin Türkiyədə Baş nazir olduğu dönəmdə baş verən mühüm bir hadisənin təhrif olunması ilə bağlı cəhdlər müşahidə edilir. Hadisələrin 45 illiyinin qeyd olunduğu vaxtda dövriyyəyə bir "sənədli film" buraxılıb. Türkiyədə kimlərsə tərəfindən hazırlanan həmin film "YouTube" portalına yerləşdirilib.**



## *Fərəc Quliyev: "Bu məsələdə Ecevitin rolu danılmazdır"*

Filimdə iddia olunur ki, 20 iyul 1974-cü ildə Kiprə ordu çıxarmaqla bağlı qərarı Ecevit yox, dövrün Baş nazir müavini Nəcməddin Ərbakan verib. Filimdə bildirilir ki, həmin dövrdə Baş nazir Bülənt Ecevit danışıqlar aparmaq üçün İngiltərədə olub. Dönəmin Türkiyə ordusunun Baş Qərargah rəisi Semih Sancarın Ərbakanla məsləhətləşməsindən sonra Baş nazirin vəzifələrini icra edən Ərbakan Kiprə daxilolma əmri verib. Aydın şəkildə görünür ki, bu şanli tarixlə bağlı Ecevitin xidmətlərini kiçiltməyə, onu Ərbakanın adına yazmağa çalışırlar.

Qeyd edək ki, bu cür məlumatların sosial şəbəkələrin Azərbaycana aid seqmentində paylaşılması birmənalı qarşılanmayıb, mövzu ətrafında gərgin polemikalar aparılıb. Bizim araşdırmamızdan isə məlum olur ki, həmin əməliyyata rəhbərliyi birbaşa Ecevit edib və bütün məsələlər Baş nazir kimi onun nəzarətində olub. Ecevitin ölkədə olmaması isə hazırlanan əməliyyatın uğurla həyata keçməsi üçün edilən diplomatik cəhdlərlə bağlı olub. Cünki bu, sıradan bir əməliyyat deyildi və bunun üçün də dünyanın supergüclərinin mövqeyini bilmək, etirazlarını neytrallaşdırmaq gərək idi. Hətta Ecevitin əməliyyatlara başlanması ilə bağlı Türkiyəyə "Ayşəgül tətilə çıxsın" məzmunlu şifrəli bir mesaj göndərdiyi də bildirilir. Yalnız həmin xəbəri alandan sonra Türkiyə Kiprə ordu çıxarmaq istiqamətində hərəkətə başlayıb. Buradan aydın şəkildə görünür ki, Kipr əməliyyatı birbaşa Ecevitin rəhbərliyi və göstərişi əsasında həyata keçirilib.

Millət vəkili Fərəc Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə məsələlərin ortaya atılmasında məqsəd ümumi prosesi gözdən salmaqdır: "Həmin hadisələrə yalnız ərazi işğalı kontekstindən yanaşmaq olmaz. Türkiyə o zaman ezilən, öldürülən soydaşlarına sahib çıxdı. Ərdoğanın son çıxışında bir daha işarə olundu ki, orada yenidən türklərə qarşı hansısa mənfi münasibət olarsa, Türkiyə öz sözünü yenidən deyəcək. İkinci bir bəyanatı isə belə oldu: "Həmin ərazidəki var-dövlətə sahiblənmək istəyənlər bilməlidirlər ki, qarşılarında Türkiyəni və Türkiyə Kiprini görəcəklər". Bilirsiniz ki, Aralıq dənizində Türkiyənin varlığına son qoymaq istəyirlər. Hətta Avropa Birliyi Türkiyəni sanksiya ilə hədələyir. Ortaya yeni xəritə qoyur. Eynən Yunanıstanın iddiaçı olduğu müddəalardır. Türkiyəni bununla enerji qaynaqlarından kənarda saxlamaq istəyirlər. Misir, Yunanıstan və Rum Kipri adlı bir format yaranıb. Zirvə toplantısında elan etdilər ki, Türkiyə həmin ərazini zəbt edib, lazım gəlsə, güc tətbiq edib həmin ərazini geri almaq lazımdır. Bütün bu proseslər, eyni zamnda, sizin dediyiniz istiqamətdə aparılan təbliğat prosesi gözdən salmağa, Türkiyəni dalana dirəməyə hesablanıb".

*"Sırf onun projesi olub"*

Millət vəkilinin sözlərinə görə, bu məsələdə Ecevitin rolu danılmazdır: "Bu, sırf onun projesi olub. Həmin sənəddə onun imzası var. Bəli, "Ayşəgül tətilə çıxsın" adlı bir teleqram da vurulub. Bütün planı qurandan sonra Ecevit guya kənarda olduğu görüntüsünü yaratdı və proses uğurla baş verdi. Ərbakanın da rolu olub. Çünki onlar koalision ortağı olublar. Bu elə tarixdir ki, ayrı-ayrı fərqləri üz-üzə qoyub, prosesə xələl gətirmək olmaz. Türkiyənin sıxışdırılmasına yol vermək olmaz. Belə hadisələri fərdlər üzərində qurulan intriqalara bulaşdırmaq olmaz. Belə filmlərin hazırlanması sırf təxribata xidmət edir. Xahiş edirəm ki, bu ciddi məsələni daim diqqətdə saxlayın".

***Məhəmmədəli QƏRİBLİ***

# Türk əsilli Conson İngiltərə hakimiyyətinin başında - Türkiyə və Azərbaycanla münasibətlərin sabahı...

**Britaniya parlamentinin millət vəkili Boris Conson Mühafizəkarlar Partiyasının yeni sədri və bununla da Birləşmiş Krallığın yeni Baş naziri seçilib. Partiyanın 92153 nəfər üzvü onun lehinə səs verib. Beləliklə, o həm partiya sədri, həm də Baş nazir postunda Tereza Meyi əvəzləyəcək.**



## *Qabil Hüseynli: "Bildiyim qədər, onun Türkiyə və Azərbaycana gözəl münasibəti var"*

Mey iyun ayının 7-də istefa qərarını bəyan etmişdi. Bunun səbəbi Böyük Britaniyanın Avropa İttifaqından çıxışı prosesi ilə bağlı yaranan siyasi böhran olub. Boris Conson İngiltərənin Avropa İttifaqından çıxmasının qatı tərəfdarıdır və "Breksit" layihəsinin əsas müəllifidir. O bu yaxınlarda müsəlmanlara qarşı xoşagəlməz sözlər söylədikdən sonra özünün ulu babasının da müsəlman türk olduğunu söyləyərək üzrxahlıq etmişdi.

Baş nazir vəzifəsinə seçkilər ərəfəsində keçmiş xarici işlər naziri Boris Conson bundan əvvəl müsəlman qadınların əleyhinə söylədiyi çirkin bənzətməyə görə üzr istəmiş, bu sözləri dediyinə görə kədərləndiyini və peşman olduğunu söyləmişdi. Conson çarşablı müsəlman qadınları poçt qutusuna bənzətmişdi.

Boris Conson dörd nəfər başqa namizədlə birlikdə iştirak etdiyi verilişdə islama qarşı olmadığını göstərmək üçün ulu babasının da türk müsəlman olduğunu xatırlatmışdı: "Mənim müsəlman ulu babam 1912-ci ildə bu ölkəyə gəldi, çünki buranın comərd və insanları xoş qarşılayacaq bir uğur qapısı olduğunu bilirdi". Conson Osmanlı imperatorluğunun son daxili işlər naziri Ali Kemalın nəvəsi Stenli Consonun oğludur.

Maraqlıdır ki, Boris Conson təkcə nazir olmaqda babasına oxşamayıb. Conson da, Ali Kemal da ictimai fəaliyyətə jurnalist kimi başlayıblar.

Ahmet Teflik paşanın hökumətində daxili işlər naziri vəzifəsində çalışmış Ali Kemal həm də Osmanlı imperiyasının sonuncu böyük vəziri olub. Türk kökənli yeni Baş nazirin dönəmində Böyük Britaniyanın Azərbaycan və Türkiyə ilə münasibətləri necə inkişaf edəcək?

*"Onun baş nazirliyi dövründə Azərbaycan - Böyük Britaniya münasibətləri normal və yüksələn xətt üzrə inkişaf edəcək"*

Politoloq Qabil Hüseynli bu seçimi alqışladı. Onun sözlərinə görə, Conson çox praqmatik, hər cür komplekslərdən uzaq olan siyasətçidir: "Bu persona bundan əvvəl tutduğu postlarda özünü təsdiqləyib. Türklərə münasibətini isə açıq formada ifadə edib. Bu kökdən olduğunu etiraf edib. Boris Conson, həmçinin, Böyük Britaniya iqtisadiyyatını yaxşı bilir. Böyük Britaniyanın dünya siyasətində oynadığı, oynamalı olduğu rolu da gözəl başa düşür. Zənnimcə, onun dövründə çox böyük ehtimalla ola bilər ki, "Breksit" təxirə düşsün, yaxud yenidən referendum keçirilsin. Çünki o yaxşı başa düşür ki, indiki dövrdə siyasi inteqrasiyaya, xüsusilə Avropanın inteqrasiya proseslərinin getməsinə və sıx sıralarla addımlamasına çox böyük ehtiyac var. Ona görə də mən cəsarətlə deyə bilərəm ki, Boris Conson namizədlər içərisində ən layiqlisi idi. Çox yaxşı haldır ki, Böyük Britaniya özünə ən layiqli insanı Baş nazir seçdi. Mənim bildiyim qədər, onun Türkiyə və Azərbaycana gözəl münasibəti var. Türkdilli respublikalara münasibəti yaxşıdır. Zənnimcə, onun baş nazirliyi dövründə Azərbaycan-Böyük Britaniya münasibətləri normal və yüksələn xətt üzrə inkişaf edəcək. Bizim həmin ölkə ilə münasibətlərimizdə ciddi problem yaşanmır. Ancaq Conson faktoru bunu daha da yaxşı etməyə qadirdir".

***Məhəmmədəli QƏRİBLİ***

# Sovet dövrü bəzi Azərbaycan tarixçilərinin elmi işləri müstəqil dövlətçilik ideologiyası ilə aşkar ziddiyyətə keçdi - Bəzi işlər ləğv oluna bilər...

**Bolşevik istilasından sonra Azərbaycan tarixi tamamilə saxtalaşdırmaya məruz qaldı. Azərbaycan Xalq Cümhuriyyətinin tarixi ilə yanaşı, qədim dövlətçilik tariximiz, o cümlədən də xanlıqlar dönəmi büsbütün təhrifə uğradıldı. Bunu bolşevizm ideologiyasının mahir icraçıları olan Azərbaycan tarixçiləri həyata keçirməyə başladılar.**

Azərbaycanın milli dövlətçilik ideologiyasının, müstəqilliyinin əleyhinə minlərlə dissertasiya, kitablar yazılaraq nəşr edildi. Özü də bu kitabları, dissertasiyaları yazan şəxslər nəinki elmi adlar alıb, elmlər namizədi, elmlər doktoru, professor oldular, hətta dövrün yüksək mükafatları ilə təltif edildilər. Azərbaycanın dövlət müstəqilliyi, milli dövlətçilik ideologiyamızla ziddiyyət təşkil edən həmin alimlərin elmi işləri, dissertasiyaları, kitabları yenə də arxivlərdə, kitabxanalarda saxlanır, yeri gəldikdə isə istinad yerinə çevrilir. Azərbaycanın dövlət müstəqilliyi əleyhinə yazılan dissertasiyaların, kitabların taleyi necə olmalıdır?

Ekspertlər qeyd edirlər ki, dövlət müstəqilliyimiz əleyhinə yazılmış dissertasiyalar və kitablar, bütövlükdə, arxivlərdən, kitabxanalardan yığışdırılmalıdır. Hətta bəzi ekspertlər hesab edirlər ki, dövlətçiliyimiz əleyhinə yazan və buna görə elmlər namizədi, elmlər doktoru kimi elmi dərəcələr alan, həyatda olan alimlərin elmi adlarının alınması zəruridir. Onların fikrincə, bu şəxslərin elmi fəaliyyəti, bütövlükdə, Azərbaycan tarixini saxtalaşdırmağa, eləcə də dövlətçiliyimiz əleyhinə yönəlib, bu halda onların təqaüd və maaşları saxlanmaqla elmi dərəcələri və elmi adları ləğv olunmalıdır. Azərbaycanın dövlətçiliyi əleyhinə yazan tarixçilərin "elmi araşdırmaları" bu günün qəti zərərinə olduğu üçün, aidiyyəti qurumlar bununla bağlı tədbirlər görməlidirlər.

Alimlər hesab edirlər ki, Azərbaycan tarixinin Sovet dövrünün yenidən yazılmasına ciddi ehtiyac var və yeni elmi araşdırmalar vaxtilə saxtalaşdırılan tariximizin haqqını özünə qaytara biləcək.

Yeri gəlmişkən, AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov müsahibələrindən birində Azərbaycan tarixinin Sovet dövrünün yenidən yazılacağını bildirib.

Azərbaycanın dövlət müstəqilliyi əleyhinə yazılan dissertasiyaların, kitabların yığışdırılması, eləcə də bu nəşrlərin müəlliflərinin elmi dərəcə və adlarının alınması ilə bağlı fikirlərə münasibət bildirən tanınmış tarixçi-alim, professor Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə bildirdi ki, bu məsələ uzun müddətdir elmi ictimaiyyətdə müzakirə edilir. Azərbaycan tarixinin Sovet dövrünün yenidən yazılmasına münasibət bildirən M.Zülfüqarlı qeyd etdi ki, o özü belə bir kitab yazıb və tariximizin saxtalaşdırılmış hissələrini bərpa edib. "Mən Sovet dövrünün tarixşünaslığını yenidən yazmışam və artıq kitabı nəşr etdirmişəm. 1920-1991-ci illəri əhatə edən bir elmi araşdırma ortaya qoymuşam. Həmin kitabda Azərbaycanın dövlət müstəqilliyi əleyhinə yazılan dissertasiyaların, kitabların yığışdırılmasını, eləcə də bu nəşrlərin müəlliflərinin elmi dərəcə və adlarının alınmasını tələb edən tarixçi-alimlərin də fikirləri var. Hətta tarixçi-alimlərin bəziləri təklif edirdi ki, Sovet dövründə Azərbaycanın dövlət müstəqilliyi əleyhinə elmi işlər yazan şəxslərin elmi adları əllərindən alınsın və onlara cinayət işi açılsın. Ancaq mən bu fikrin tərəfdarı deyiləm. Çünki hər dövrün özünün xüsusiyyətləri var. Sadəcə olaraq onların yol verdiyi saxtakarlıqlar aradan qaldırılmalıdır. Hətta 1997-ci ildə Heydər Əliyev Milli Elmlər Akademiyasında olarkən də demişdi ki, XX əsr Azərbaycan tarixi yenidən yazılmalıdır. Sovet dövrü tariximiz yazılmalıdır. Ancaq fikrimcə, həmin şəxslərə qarşı bu cür radikal yanaşma sərgiləmək lazım deyil. O insanların böyük əksəriyyəti həyatda deyil və bu baxımdan da onların ruhlarını incitmək olmaz. Çünki Sovet dövründə Azərbaycan xalqının ziyalıları o çətin şəraitdə yaxşı əsərlər yazıblar" - deyə M.Zülfüqarlı qeyd etdi.



**Məhərrəm Zülfüqarlı:** *"Tarixçi-alimlərin bəziləri təklif edirdi ki, Sovet dövründə Azərbaycanın dövlət müstəqilliyi əleyhinə elmi işlər yazan şəxslərin elmi adları əllərindən alınsın və onlara cinayət işi açılsın"*

**Faiq Ələkbərli:** *"... özlərində cəsarət tapıb öz elmi işlərindən, dissertasiyalarından, kitablarından və elmi dərəcə və titullarından imtina etməlidirlər"*

AMEA-nın Fəlsəfə İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru, tanınmış tarixçi-alim Faiq Ələkbərlinin fikrincə isə həmin şəxslərin elmi dərəcələri və elmi adlarının alınması zəruri olsa da, onlara qarşı bunu həyata keçirmək mümkün olmayacaq. "Bu vacib olsa da, onların elmi adlarının və dərəcələrinin əllərindən alınması o qədər də asan məsələ deyil. Çünki həmin elmi dərəcələri və elmi adları onlar Sovet dövrünün şərtləri altında alıblar. Əlbəttə, burada bir məsələ var. Sovet ideologiyasının təsiri və təzyiqi altında Azərbaycanın dövlətçiliyi əleyhinə yazan, dissertasiya müdafiə edən, milli tariximizi saxtalaşdıran insanlar etiraf etməlidirlər ki, onlar tariximizi saxtalaşdırıblar. Buna görə də xalqımızdan üzr istəməlidirlər. Hesab edirəm ki, o insanlar özlərində cəsarət tapıb öz elmi işlərindən, dissertasiyalarından, kitablarından və elmi dərəcə və titullarından imtina etməlidirlər. Yəni onlar imtina edə bilərlər. Lakin onların heç biri indiyə qədər etiraf etməyibլər ki, bəli, Cümhuriyyət dövrü tarixini saxtalaşdırıblar, xanlıqlar dövrü haqqında həqiqətə uyğun olmayan fikirlər yazıblar, Ağa Məhəmməd şah Qacarı, Nadir şah Əfşarı, Abbas Mirzəni və başqa qüdrətli şəxsiyyətlərimizi qaniçən, başkəsən kimi təqdim ediblər. Səfəvilərə qarşı da eyni yolu tutublar. Bu şəxslər Sovet dövründə Azərbaycan dövlətçiliyinin əleyhinə yazmaqla, tariximizi saxtalaşdırmaqla, böyük dövlət xadimlərimizə çirkab atmaqla elmi dərəcələr, elmi adlar alıblar. İndiki halda nə Ali Attestasiya Komissiyası, nə də Milli Elmlər Akademiyası tərəfindən onların elmi adlarının alınması çox çətindir. Qeyd etdiyim kimi, onlar bunu Sovet dövründə alıblar" - deyə alim vurğuladı.

***İradə SARIYEVA***

**Qeyri-neft sektorunun mühüm qolu kimi aqrar sahənin inkişafı bu gün ölkəmizdə prioritet istiqamətlərdən birini təşkil edir. Qeyd edilən səpkidə atılan addımlar artıq öz müsbət nəticələrini də verməkdədir. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatına əsasən, təkcə bu ilin yanvar-may aylarında Azərbaycanda istehsal edilmiş kənd təsərrüfatı məhsullarının dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə 6,7% çox olub.**

# Azərbaycana aqrar sektor xəttilə böyük miqdarda valyuta axını başlanır



Aqrar sahədə istehsalla yanaşı, ixrac da artmaqdadır. Belə ki, 2019-cu ilin ilk 5 ayında Azərbaycan 241 milyon dollar dəyərində 252 min ton meyvə-tərəvəz ixrac edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 27% və 25% çoxdur. Amma hökumət üçün əsas məqsəd ixrac həcminin milyardlarla dollar miqdarında olmasıdır. Elə bu səbəbdən fermerlərə dəstək artırılır, onlar daha çox həcmdə məhsul istehsalına təşviq edilir. Elə yeni subsidiya mexanizminin işə salınması üçün görülən hazırlıqlar da buna hesablanıb. Xatırladaq ki, ölkə başçısı iyunun 27-də "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" fərman imzalayıb və bu sənəd subsidiyaların fermerlərə vahid mexanizm vasitəsilə çatdırılmasını nəzərdə tutur.

Gələn ildən etibarən subsidiyalar Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin (EKTİS) altsistemi olan Subsidiya İnformasiya Sistemi vasitəsilə veriləcək. Bu sistemdə qeydiyyatdan keçməyən fermerlər subsidiya ala bilməyəcək. Məhz bu durumda fermerlərin Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində qeydiyyatdan keçməsi çox vacibdir. Yeni fermerlər EKTİS-də qeydiyyatdan keçərsə, subsidiya almaları asanlaşacaq, vaxt itkisinin qarşısı alınacaq. Eyni zamanda belə vəziyyətdə verilən subsidiyalar daha çox istehal dövriyyəsinə gətirib çıxaracaq. Kənd təsərrüfatı məsələləri üzrə ekspert Nicat Nəsirli də vurğulayır ki, elektron kənd təsərrüfatı sisteminin qurulması insan amilini istisna edəcək və burada fərdi yanaşmalar olacaq: "Yeni subsidiya proqramının hədəfi ilk öncə keyfiyyətli məhsula subsidiya verməkdir. Burada şərt var ki, mütləq sertifikatlaşdırılmış toxumdan istifadə olunmalıdır. Bunu etməyən fermerə subsidiya verilməyəcək. Subsidiya vəsaitləri fermerlərin bank kartlarına köçürüləcək. Alınan subsidiya məbləğinin 25 faizi nağdlaşdırıla bilər. Fermerlər yerdə qalan vəsaiti isə nağdlaşdırmadan, sadəcə gübrə, pestisid, toxum və ya ting alışı zamanı hesabdan-hesaba köçürəcəklər. Subsidiya proqramı imkan verəcək ki, burada dövlət tənzimləmələri həyata keçirilsin və bazarı tənzimləmək mümkün olacaq". O da bəllidir ki, subsidiyaların verilməsi ilə bağlı monitorinq və qiymətləndirmələr aparılacaq, subsidiyaların təyinatına uyğun istifadəsi və sui-istifadə halları ortadan qaldırılacaq.

Yeni subsidiya sistemində həm də hər hansı kənd təsərrüfatı məhsulunun əkilməsi zamanı onun fermer, iqtisadiyyat üçün gəlirliliyi, məşğulluq imkanlarının yaradılması, eyni zamanda ölkənin idxal və ixrac imkanlarına necə təsir etməsi kimi operativ məsələlərin nəzərə alınması əsas məqamlardandır. Mühüm olan həm də odur ki, artıq fermerlər subsidiyaları elektron kənd təsərrüfatı sistemindən istifadə edərək ələ edəcəklər. Hesab olunur ki, yeni subsidiya sistemi məhsuldarlığın artmasına, idxaldan asılılığın azalmasına, eyni zamanda qida təhlükəsizliyinin təmin olunmasına da müsbət təsir edəcək.

Qeyd edək ki, fermerlərə subsidiyaların verilməsi ilə bağlı xidmətlərin göstərilməsi regionlarda Dövlət Aqrar İnkişaf Mərkəzləri tərəfindən həyata keçiriləcək, mərkəzdən əlaqələndirməni Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi həyata keçirəcək.

İndiyədək 300 mindən çox fermer öz aqrar fəaliyyətlərinə dair məlumatları EKTİS-ə daxil edib. Bu ilin sonunadək fermerlərin EKTİS-də qeydiyyatı prosesi tam yekunlaşdırılacaq. İndi hesab edilir ki, yeni sistemin işə salınması subsidiyalarla bağlı indiyə qədər olan neqativ halları aradan qaldıracaq. Məhz bu şəraitdə ölkə üzrə daha çox miqdarda aqrar məhsulların istehsalı gözlənilir. Bu şəraitdə aydındır ki, ixracın həcminin artması təbiidir. Ümumiyyətlə, hesab edilir ki, ub gedişlə aqrar sahə Azərbaycana valyuta qazandıran əsas sahələrdən birinə çevrilə biləcək. Ümumiyyətlə, indiki şəraitdə ölkənin aqrar sektorunda ixrac tutumlu məhsulların istehsalının genişləndirilməsi strateji əhəmiyyət daşıyır. Aqrar sektorun bu və digər sahələrini geniş inkişaf etdirmək və beləliklə də xarici istehlak bazarlarında geniş şəkildə təmsil olunmaqla ölkəyə qeyri-neft sektorundan valyuta daxilolmalarını əhəmiyyətli dərəcədə artırmaq mümkündür.

Yuxarıda qeyd olunduğu kimi, artıq ölkənin regionlarında ixrac tutumlu məhsulların istehsalının artırılmasına nail olmaq məqsədilə zəruri tədbirlər həyata keçirilir. Fermerlərə güzəştli subsidyaların artırılması, dövriyyəyə yeni torpaqların cəlb olunması, kollektiv təsərrüfatların yaradılması, zəruri texnikanın alınması bu kimi tədbirlər sırasındadır.

**Bundan əlavə o da məlumdur ki, kənd təsərrüfatı sahəsi torpaq vergisindən başqa bütün vergilərdən azad edilib. Eyni zamanda "azexport" portalı, ticarət evləri, ticarət nümayəndəlikləri vasitəsilə ölkəmizin ixrac potensialı xaricdə geniş təbliğ olunur. Bütün bunlar, təbii ki, fermerlərin daha keyfiyyətli məhsul istehsal etməsinə və satmasına səbəb olur. Belə vəziyyət, öz növbəsində, ölkəyə valyuta daxilolmalarını da əhəmiyyətli dərəcədə artırır.**

***Nahid SALAYEV***

**Ölkəmizdə ədəbi dildən istifadə məsələsində hələ də xeyli qüsur var. Baxmayaraq ki, ədəbi dil qaydalarının pozulmasına qarşı müvafiq qurumlar tərəfindən mübarizə aparılır, bu halın qarşısının alınması üçün maarifləndirici tədbirlər həyata keçirilir, lakin bu problemin köklü şəkildə həllinə nail ola bilməmişik.**

# Dil pozucularının cərimələnməsi rəsmiləşdi

***Buludxan Xəlilov:** "İlkin mərhələdə bu cərimələr dil qaydalarına düzgün əməl etməyən müəssisə, təşkilat və qurumlara tətbiq ediləcək ki, onlar səhvlərini düzəltsinlər"*

Dəfələrlə mövcud problemin birdəfəlik aradan qaldırılması üçün inzibati cəzanın tətbiq edilməsi gündəmə gətirilsə də, bir sıra mütəxəssislər hesab edirdilər ki, bu qüsurların aradan qaldırılması üçün cərimələrin tətbiq edilməsi fayda verməyəcək, problem yalnız maarifçilik yolu ilə öz həllini tapmalıdır. Ancaq, gördüyümüz kimi, maarifçilik işi heç bir fayda vermədi. Yenə də ədəbi dil qaydalarını pozanlara qarşı konkret cəzaların müəyyən edilməsi öz aktuallığını saxladı. Artıq bu məsələ qanun çərçivəsində həll ediləcək. Belə ki, Azərbaycanda ədəbi dil normalarının pozulmasına görə cərimələrin tətbiq edilməsi barədə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nəsimi adına Dilçilik İnstitutunun Nazirlər Kabinetinə verdiyi təklif qəbul edilib.

Qeyd edilənə görə, bu cərimələrin yeni yaradılacaq Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi tərəfindən tətbiq edilməsi nəzərdə tutulur. Mərkəzin noyabrın 1-dək fəaliyyətə başlayacağı gözlənir.

Məlumat üçün bildirək ki, Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin yaradılması üçün bütün qanunverici sənədlər imzalanıb. AMEA-nın Dilçilik İnstitutunun rektoru, akademik Möhsün Nağısoylu qeyd edib ki, bütün bu sənədlər imzalansa da, yalnız Monitorinq Mərkəzinin yaradılması haqqında Prezidentin sərəncamının verilməsi məsələsi qalıb. "Bu il noyabrın 1-də Prezident İlham Əliyev Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Fərman imzalamasının 1 ili tamam olacaq. Hesab edirəm ki, Mərkəz həmin vaxtadək - noyabrın 1-dək fəaliyyətə başlayacaq" - deyə o vurğulayıb.

M.Nağısoylu bildirib ki, Monitorinq Mərkəzi afişalar, reklamlar və elanlarda normaların pozulması hallarının aradan qaldırılması üçün qurumlara göstərişlər verəcək, təbliğat işləri aparacaq: "Biz ədəbi dil normalarının pozulmasına görə cərimənin tətbiqini də təklif etmişik. Cərimələrin həm fiziki, həm də hüquqi şəxslər üçün tətbiqi təklif edilib. Bu təklifimiz NK tərəfindən qəbul edilib".

Xatırladaq ki, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Prezidentinin Fərmanına əsasən, Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi yaradılacaq. Mərkəz Azərbaycan dilinin tətbiqinə nəzarət, kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının qorunmasını təmin edəcək.



*"...onlar dili tətbiq edərkən ayrı-ayrı mütəxəssislərlə hesablaşacaqlar"*

Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, Dövlət Dil Komissiyasının üzvü, professor Buludxan Xəlilov "Bakı-Xəbər"ə bildirdi ki, ədəbi dil pozucularına qarşı cərimələrin tətbiqi bu sahədə mövcud problemlərin həllində mühüm rol oynayacaq. "Ümumiyyətlə, respublika ərazisində müxtəlif lövhələrdə, tablolarda, reklamlarda dil normalarına lazımi qaydada riayət edilmir. Burada ədəbi dil qaydaları pozulur və bu da ölkə ictimaiyyətinin diqqətini cəlb edir. Hətta onu da demək lazımdır ki, bu məsələ nəinki dilçi mütəxəssisləri, bütövlükdə, ölkə ictimaiyyətinin hər bir üzvünü narahat edir, onlar ədəbi dil normalarına riayət edilməsini tələb edirlər. Bu səbəbdən də Nəsimi adına Dilçilik İnstitutunun ədəbi dil qaydalarının pozulması ilə bağlı cərimələrin tətbiqinə dair hazırladığı layihə, təklifin Nazirlər Kabineti tərəfindən qəbul edilməsi təqdirəlayiq işdir. Bu istiqamətdə Baltikyanı ölkələrdə çox böyük bir təcrübə var. Uzun müddətdir o ölkələrdə ədəbi dil normalarını pozanlar cərimə olunur. Dil normalarının praktik olaraq həm şifahi, həm də yazılı istifadəsi pozulursa, orada buna yol verənlər cərimələnir. Bu təcrübə var və Azərbaycanda da bunun tətbiq olunması çox qanunauyğun bir haldır. Burada narahat olmağa dəyməz. Bəzən vətəndaşlar narahat olurlar ki, dil qaydalarını pozan təşkilat və müəssisələrlə yanaşı, onlara da aid edilə bilər. Xeyr, aid deyil. Cəmiyyət bilməlidir ki, bu onlara tətbiq edilməyəcək. Bu cərimələr ədəbi dil qaydalarına riayət etməyən və müxtəlif reklam tablolarında, bazar və dükanların üzərindəki yazılarda qaydaları pozanlara aid olunacaq. O qurumlar, təşkilatlar ki, ədəbi dil normalarına riayət etmirlər. Azərbaycan ərazisində kifayət qədər təşkilat, müəssisə, qurum var ki, onların üzərindəki yazılarda bəzən dil qaydaları pozulur, eyni zamanda, Azərbaycan dilinin imkanları düzgün tətbiq olunmur, eləcə də Azərbaycan dilinin dövlət dili olması imkanlarına düzgün əməl olunmur. Ona görə də təşkilatlar, müəssisələr cərimələnəcəklər".

Bunun da faydasız olmayacağını deyən B.Xəlilov hesab edir ki, bu ona gətirib çıxaracaq ki, dildən istifadə edən müəssisələr, təşkilatlar, qurumlar dilçi mütəxəssislərin tövsiyələrindən istifadə edəcəklər, nəticədə isə problem öz həllini tapacaq. "Bu da ölkə ərazisində reklamlarda, tablolarda, müxtəlif küçə-bazarlarda müəssisələrin, təşkilatların dil qaydaları tətbiq edilərkən normalara riayət etməsinə geniş imkan yaradacaq. Bir məqama aydınlıq gətirmək istəyirəm. İnsanlar elə bilirlər ki, danışarkən şifahi nitqdə dil qaydalarını pozsalar, onlar da cərimələnəcəklər. İlkin mərhələdə bu cərimələr dil qaydalarına düzgün əməl etməyən müəssisə, təşkilat və qurumlara tətbiq ediləcək ki, onlar səhvlərini düzəltsinlər. Bu da onunla bağlı olacaq ki, ayrı-ayrı müəssisələrdə, təşkilatlarda, yerli icra orqanlarında dilçi mütəxəssislərdən istifadə olunacaq. Yerli icra orqanlarına dilçi mütəxəssislərin cəlb edilməsinə çox böyük ehtiyac var. Bu mənada ki, bu dilçi mütəxəssislər ayrı-ayrı icra strukturlarında, inzibati ərazilərdə dil qaydalarına əməl olunmasına nəzarət etməli və bu məsələdə qurumlar dilçilərlə məsləhətləşməlidirlər. Dil qaydalarının pozulub-pozulmamasını onlardan öyrənməlidirlər. Bunun nəticəsində də müxtəlif bölgələrdə, rayonlarda, mərkəzi şəhərlərdə dil qaydaları düzgün tətbiq olunacaq. Cərimələrin tətbiqi də, bir növ, icra strukturlarını, dili tətbiq edən müəssisə və təşkilatları məsuliyyətə cəlb edəcək və onlar dili tətbiq edərkən ayrı-ayrı mütəxəssislərlə hesablaşacaqlar".

B.Xəlilovun fikrincə, hansısa rayon ərazisində reklam lövhələri hazırlanarkən qurumlar mütəxəssislərlə məsləhətləşəcək və bu da işin xeyrinə olacaq. Cərimələrin tətbiq edilməsi ərazi idarəetmə orqanlarının məsuliyyətli olmasına səbəb olacaq. O qeyd etdi ki, Monitorinq Mərkəzinin noyabrın 1-də fəaliyyətə başlaması da faydalı olacaq. "Bu barədə ölkə başçısının sərəncamı olacaq. Monitorinq Mərkəzinin fəaliyyətə başlaması bu sahənin nizama, qaydaya düşməsinə səbəb olacaq. Bu sahə nəzarətə götürüləcək" - deyə B.Xəlilov vurğuladı.

***İradə SARIYEVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökümət Təşkilatlarına Dövlət Dəstəyi Şurası

## Azərbaycan gəncinin vətənpərvər tərbiyəsində dövlət və qeyri-dövlət təşkilatlarının müsbət fəaliyyəti...

**Gənc nəslin vətənpərvər ruhda böyüməsi, bu ruhda tərbiyə edilməsi, dövlətlə yanaşı, həm də qeyri-hökumət təşkilatlarının əsas vəzifəsi olduğundan, qeyd etdiyimiz təbəqənin bu istiqamətdə fəaliyyət göstərməsi, müxtəlif layihələr gerçəkləşdirməsi, tədbirlər təşkil etməsi zəruridir.**

Sevindirici hal ondan ibarətdir ki, Azərbaycanda bu istiqamətdə vəziyyət ürəkaçandır və ölkədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının mütləq əksəriyyəti gənclərin vətənpərvər ruhda tərbiyəsi istiqamətində davamlı tədbirlər keçirirlər. Onu da qeyd etmək lazımdır ki, bu prosesdə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Çünki, məhz adıçəkilən şuranın maliyyə dəstəyi nəticəsində qeyri-hökumət təşkilatları bu və ya digər layihələrini reallaşdırırılar.

Günümüzdə cəmiyyətimizdə gedən proseslər və həm qeyri-hökumət, həm də gənclər təşkilatlarının fəaliyyətlərinə diqqət yetirdikdə belə nəticəyə gəlmək olur ki, əksər qeyri-hökumət və gənclər təşkilatları bu istiqamətdə fəallıq nümayiş etdirirlər. Çünki onların sözügedən istiqamətdə, ümumilikdə fəal olması üçün stimul yaradılıb. İstər Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, istər Azəbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu, istərsə də müvafiq nazirlik və qurumların ayrı-ayrı təşkilatların layihələrini maliyyələşdirməsi, onların tədbirlərinin keçirilməsi üçün maliyyə vəsaitinin ayrılması QHT və gənclər təşkilatlarınn da aktiv olmasına imkan yaradır. Həm QHT-lərə Dəstək Şurası, həm də Gənclər Fondunun dəstəyi ilə yüzlərlə təşkilat gənclərin vətənpərvər ruhda tərbiyə olunması ilə bağlı tədbirlər keçirirlər ki, bu da ümumilikdə işin xeyrinə olan məsələdir. Ayrı-ayrı qeyri-hökumət təşkilatlarının müntəzəm olaraq cəbhə bölgəsində keçirdiyi tədbirlər, ön xəttdəki hərbi hissələrin əsgər və zabitləri ilə təşkil olunan görüşlər Silahlı Qüvvələrin şəxsi heyətində, əsgər və zabitlər arasında ruh yüksəkliyi yaratmaqla yanaşı, eyni zamanda gənclərin də vətənpərvər ruhda tərbiyəsinə, onlarda Vətənə, millətə sevgi hissinin artmasına təkan verir.

Ancaq nə qədər tədbirlər keçirilsə, layihələr reallaşdırılsa da, hələ də gənclərin vətənpərvər ruhda tərbiyə olunması istiqamətindəki fəaliyyətimizi tam bitmiş hesab edə bilmərik. Çünki bizim torpaqlarımızın 20 faizi ermənilər tərəfindən işğal olunub, bir milyona yaxın soydaşımız qaçqın və məcburi köçkün həyatı yaşayır. Ona görə də torpaqlarımız işğaldan azad edilməyənə, soydaşlarımız öz dədə-baba torpaqlarına qayıtmayana qədər biz gənclərin vətənpərvər ruhda tərbiyəsinə daha ciddi yanaşmalı, bu istiqamətdə fəaliyyəti daha da artırmalıyıq.

Hesab edirəm ki, bu proses bağçadan başlayaraq orta məktəb, hətta ali məktəbdə də davam etməlidir. Gənclərimiz tarixin müxtəlif dövrlərində yaşamış və ad qoymuş tarixi şəxsiyyətlərimiz, sərkərdələrimizi, milli qəhrəmanlarımızı yaxından tanımalı, onların həyat yolu, Vətən uğrunda apardıqları mübarizəni dərindən öyrənməlidirlər. Ona görə də tam əminliklə deyə bilərik ki, bu gün gənclərin milli ruhda böyüməsi, onlara vətənpərvərlik hisslərinin aşılanması ən vacib istiqamətərdən biridir. Bir məqama da diqqət çəkmək lazımdır ki, Azərbaycan dövləti gənclərin milli mənlik şüurunun inkişaf etdirilməsi, onların vətənpərvər ruhda tərbiyə olunması istiqamətində lazımı tədbirlər görülür, müvafiq addımlar atılır. İstər bu istiqamətdə qanunvericlik bazasının formalaşdırılması, vaxtı ilə qəbul edilən qanunların təkmilləşdirilməsi, istərsə də gənclər arasında maarifləndirici xarakter daşıyan işlərin görülməsini bu sıraya aid etmək olar.

Xüsusilə, bu istiqamətdə Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin fəaliyyətinə diqqət çəkmək lazımdır. Ən çətin anlarda səngərdə öz əsgəri ilə çiyin-çiyinə olan Ali Baş Komandanın bu addımı gənclər üçün bir örnəkdir. Gənclər 2016-cı ilin Aprel döyüşləri zamanı bunun bir daha şahidinə çevrildi. Təbii ki. bu amil də gənclərin vətənpərvər ruhda tərbiyəsinə müsbət təsir edən başlıca amillərdəndir.

***Süleyman İSMAYILBƏYLİ***

**Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyilə ABUİB-in həyata keçirdiyi "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının təbliği" layihəsi çərçivəsində çap olunur.**

**Bu gün ölkədə 500-dın çox özəl tibb müəssisəsi fəaliyyət göstərir. Həmin tibb müəssisələrində çalışan personalın sayı isə 10 minə yaxındır. Danılmaz faktdır ki, tibb müəssisələrində çalışan həkimlərin əksəriyyəti bir yox, bir neçə klinikada fəaliyyət göstərir. Bir çox həkim isə eyni vaxtda bir neçə klinikada qeyri-rəsmi işləyir.**

# Bir neçə klinikada qeyri-rəsmi çalışan həkimlər - yalnız pulun başında olan yetərsiz tibbi xidmətin daha bir səbəbi...

*Natiq Cəfərli: "Bu gün əksər tibb müəssisəsi işə götürdükləri həkimlərlə rəsmi müqavilə bağlamadan onları çalışdırır"*



*"...klinikalar müqaviləsiz işçi çalışdırdığı üçün, qanunvericiliyin tələbinə əsasən cəzalandırılmalıdır"*

Bu barədə Vergilər Nazirliyinin Tədris Mərkəzinin elmi-tədqiqat işləri üzrə rəis müavini Mirəli Kazımov media nümayəndələrinə açıqlamasında deyib. O qeyd edib ki, bu səbəbdən, bir çox hallarda, vergi öhdəlikləri düzgün şəkildə yerinə yetirilmir: "Vergilər Nazirliyi 2018-ci ildə bir sıra tibb müəssisələri üzrə 230 milyon manatdan çox dövriyyənin dövlət büdcəsindən gizlədildiyini müəyyən edib. Nəzərə alsaq ki, bu rəqəm yalnız yoxlama aparılan müəssisələrə aiddir, o zaman səhiyyə sahəsi üzrə "kölgə iqtisadiyyatı"nın ümumi həcminin bundan qat-qat yüksək olduğu aydın olar.

Səhiyyə sahəsində "kölgə iqtisadiyyatı"nın mövcudluğunu şərtləndirən əsas amillər tibbi xidmətlərə görə ödənişlərin nağd şəkildə edilməsi və həkimlərin qeyri-rəsmi olaraq eyni zamanda bir neçə klinikada fəaliyyət göstərməsidir. Bu, dövlət büdcəsinə daxil olmalı olan vergilərin azalmasına gətirib çıxarmaqla yanaşı, əhalinin gəlir səviyyəsinin düzgün müəyyən edilməsi məsələsində də çətinliklər törədir".

M.Kazımov səhiyyə sahəsində "kölgə iqtisadiyyatı"nın üstünlük təşkil etməsinin mövcud qanunvericilik bazası ilə əlaqədar olduğunu deyib: "Səhiyyə sahəsində şəffaflığın təmin edilməsi üçün mövcud qanunvericilik və inzibatçılıq nəzərdən keçirilməli və nəticədə müasir iqtisadi tələblərə cavab verən qanunvericilik bazası formalaşdırılmalıdır. Bu qanunvericilik bazasının yaradılması üçün bir sıra təkliflərin nəzərdən keçirilməsi məqsədəuyğun olardı. Hər hansı tibb ocağında muzdla çalışan həkimin digər bir tibb ocağında VÖEN təqdim edərək fəaliyyət göstərməsinin qanunazidd hesab olunmasını aradan qaldıracaq amillərə yenidən baxılmalıdır. Əmək Məcəlləsinin 67-1-ci maddəsinə əsasən, praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan işçilərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının yoxlanılması məqsədilə həmin işçilərin "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunda nəzərdə tutulmuş qaydada sertifikasiyadan müvəffəqiyyətlə keçərək, VÖEN vasitəsilə xidmət müqaviləsi əsasında fəaliyyətini təmin edəcək imkanlar nəzərdən keçirilməlidir.

Bundan başqa, "Lisenziyalar və icazələr haqqında" Qanuna əsasən, "özəl tibb fəaliyyəti" lisenziya tələb edilən fəaliyyət olduğundan, digər tibb ocağında fəaliyyət göstərmək istəyən tibb işçisinə (mütəxəssisə) bu qanunun tətbiqi zamanı fərdi sahibkar kimi yanaşılmalı və ödəniləcək dövlət rüsumunun differensiallaşdırılması prinsipi tətbiq edilməlidir".

Ekspertlər də təsdiq edirlər ki, bu gün həkimlərin bir qismi bir neçə tibb müəssisəsində fəaliyyət göstərir. Onların fikrincə, vergidən yayınmaq üçün onlar qeydiyyata düşmədən fəaliyyət göstərirlər.

İqtisadçı-ekspert Natiq Cəfərli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, həkimlər klinikaya işə götürülərkən qeydiyyat rəsmiləşdirilməlidir. Bir sıra xarici ölkələrdə həkimlərin özəl fəaliyyət göstərməsi üçün onlara xüsusi lisenziya verilməlidir.

Həkim özəl lisenziya alandan ya ay, ya da il ərzində gördüyü işlərin müqabilində qazancın müəyyən faizini vergiyə ödəməlidir. Eyni qayda Azərbaycanda tətbiq oluna bilər: "Bununla yanaşı, tibb müəssisələrinə ciddi nəzarət tətbiq olunmalıdır. Klinikaların ixtiyarı yoxdur ki, müqaviləsiz işçi çalışdırsın. Ümumiyyətlə, istənilən müəssisə, o cümlədən, klinikalar müqaviləsiz işçi çalışdırdığı üçün, qanunvericiliyin tələbinə əsasən cəzalandırılmalıdır. Müqaviləsiz həkim xəstəxanada çalışdırılırsa, hüquqi şəxslər də cəzalandırılır.

Tibbi müəssisələrin özləri cəzandırılarsa, onlar həkimlərlə müqavilə bağlamadan əməkdaşlıq etməzlər. Bu zaman avtomatik vergidən yayınmanın qarşısı alınar".

**Həmsöhbətimiz onu da vurğuladı ki, bu gün əksər tibb müəssisəsi işə götürdükləri həkimlərlə rəsmi müqavilə bağlamadan onları çalışdırır. Təbii, bu halda vergidən yayınma baş verir. Vergidən yayınmanın qarşısını almaq üçün işə götürülən həkimlər qeydiyyata alınmalıdır.**

***Günel CƏLİLOVA***

**Xəbər verildiyi kimi, Azərbaycan dilində iki variantda yazılan 50-yə yaxın söz orfoqrafiya lüğətindən çıxarılır. 50-yə yaxın sözün orfoqrafiya lüğətindən çıxarılması geniş əks-səda doğurub. Dilçi-alimlərin əksəriyyəti bəzi sözlərin orfoqrafiya lüğətindən çıxarılmasını birmənalı qarşılamayıb.**

# Yeni orfoqrafiya lüğətindən 50-yə yaxın söz hansı səbəbdən çıxarılır?



## Möhsün Nağısoylu: "Lüğətdən çıxarılanlar qondarma, ikivariantlı sözlərdir"

Məlumdur ki, artıq yenilənmiş "Azərbaycan dilinin orfoqrafiya lüğəti" hazırlanır. Onu da bildirək ki, son dövrlər ən çox müzakirə edilən və barəsində müxtəlif fikirlər səsləndirilən elə "Azərbaycan dilinin orfoqrafiya lüğəti" idi. Məlum olduğu kimi, artıq Azərbaycan dilinin yeni orfoqrafiya normaları bir müddət əvvəl Nazirlər Kabineti tərəfindən təsdiqlənib. Bildirək ki, 69 maddədən ibarət olan orfoqrafiya lüğətinin layihəsi geniş ictimai müzakirəyə çıxarılmışdı və lüğətlə bağlı bir sıra alimlər, dilçilər, ziyalılar təkliflər irəli sürmüşdülər. Nazirlər Kabineti tərəfindən Azərbaycan dilinin yeni orfoqrafiya normaları təsdiqləndikdən sonra da orada yer alan bəzi sözlərin yazılışı ilə əlaqədar mübahisə doğuran fikirlər mətbuatda yer almağa başlayıb.

Məlumat üçün bildirək ki, Azərbaycan dilinin son orfoqrafiya lüğəti 2013-cü ildə çap edilib.

Orfoqrafiya lüğətindən 50-yə yaxın sözün çıxarılması barədə fikir bildirən Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu qeyd etdi ki, hazırda yeni orfoqrafiya lüğətinə daxil olacaq sözlərin yazılışı yenidən yoxlanır. Lüğətin sentyabrda çapa verilməsi nəzərdə tutulur: "Ola bilsin ki, lüğətə daxil olan bəzi sözlərin yazılışı ilə bağlı Nazirlər Kabineti və Prezident Administrasiyasından kiçik düzəlişlər edilsin. Bu düzəlişlərin nədən ibarət olacağını hələ dəqiq deyə bilmərəm. Yeni orfoqrafiya lüğətinə 2013-cü ildən sonra - son 6 il ərzində dilimizə daxil olan 4000 yeni söz daxil edilib, hazırkı lüğətdə mövcud olan təxminən 1000 söz isə lüğətdən çıxarılıb. Lüğətdən çıxarılanlar qondarma, ikivariantlı sözlərdir. Bəzi sözlər həmin lüğətdə ikivariantlı yazılıb. Məsələn, lüğətdə altun da, altın da, adəm də, adam da, nəqqaş da, naqqaş da, adinə də, adına da var. Onlarla bağlı müzakirələr aparmışıq, sonda belə ikivariantlı sözlərin yalnız birini yeni lüğətdə saxlamışıq. Saxladığımız sözlər dilimizdə daha çox qəbul edilən, izahlı lüğətdə verilən sözlərdir. Məsələn, yeni lüğətdə naqqaş yox, nəqqaş, adəm yox, adam, altın yox, altun, adinə yox, adına yazılıb.

*"Saxladığımız sözlər dilimizdə daha çox qəbul edilən, izahlı lüğətdə verilən sözlərdir"*

"Adinə" sözü adına sözünün klassik variantı olsa da, dilimizdə daha çox işlək olan "adına" sözünü saxlamışıq".

**Akademik onu da vurğuladı ki, hazırkı lüğətdə iki variantda yazılan sözlərin sayı 100-ə yaxındır. Yeni lüğətə isə həmin sözlərdən dilimizdə daha çox işlək olanı daxil ediləcək, buna görə də əvvəllər iki variantda yazılan sözlərin 50-yə yaxını lüğətdən çıxarılacaq.**

*Günel CƏLİLOVA*

---

**Xərçəng xəstəliyi hüceyrələrdə DNT-nin (Dezoksiribonuklein turşusu) zədələnməsi nəticəsində hüceyrələrin anormal və sistemsiz şəkildə böyüməsi və çoxalması nəticəsində meydana gəlir. Hər gün vücudumuzda (DNT-də) təqribən on min mutasiya prosesi getsə də, immun sistemimiz hər millisaniyədə vücudumuzu yoxlayır və xərçəng xəstəliyi törədə biləcək hüceyrələri məhv edir.**

# Uşaqlarımızda xərçəngi çoxaldan səbəblər...



## Adil Qeybulla: "...uşaqlarda immunitet sisteminin formalaşması xeyli aşağıdır"

Xərçəng xəstəliyi bədənimizdə olan hüceyrələrin sistemsiz bir şəkildə çoxalması və digər toxumalara təsir etməsi nəticəsində yayılır.

Son zamanlar xərçəng xəstəliyindən əziyyət çəkənlərin sayı artır. Böyüklərlə yanaşı, uşaqlar da bu xəstəliyin qurbanına çevrilir. Açıqlanan statistik rəqəmlərə əsasən, 2018-ci ildə Azərbaycanda 11123 nəfərdə bədxassəli şiş aşkar edilib. Bu barədə məlumatı Dövlət Statistika Komitəsi yayıb. Yaş qrupları üzrə statistik rəqəmlərdə qeyd olunur ki, onlardan 103 nəfəri 0-13, 21 nəfəri 14-17, 243 nəfəri 18-29, 254 nəfəri 30-34, 366 nəfəri 35-39, 4 836 nəfəri 40-59, 5 300 nəfəri isə 60 və yuxarı yaş qrupunda olan insanlardır.

Eyni zamanda, xəstəlik aşkarlananlardan 5 468 nəfərinin kişi, 5 655 nəfərinin isə qadın olduğu bildirilib.

Məlumat üçün bildirək ki, bədxassəli şişlərdən 1 211-i mədə, 1 341-i traxeya, bronx və ağciyər, 1 799-u süd vəzisi, 201-i ağız boşluğu və udlaq, 426-sı qida borusu, 216-sı qırtlaq, 589-u isə düz bağırsaqda, onunla sıqmavari bağırsaq birləşməsində, anusda aşkarlanan şişlərdir.

Uşaqlar arasında xərçəng xəstəliyinin nə səbəbdən artdığını öyrənmək məqsədilə mütəxəssislərə müraciət etdik.

Tibb elmləri doktoru, professor Adil Qeybulla qeyd etdi ki, uşaqlar arasında onkoloji xəstəliklər artıb: "Uşaqlar arasında onkoloji xəstəliklərin yayılan növləri leykoz, leykemiya və sarkomadır. Beyin şişləri də bu növə daxildir.

Ümumiyyətlə, onkoloji xəstəliklər bütün yaşlarda olan insanlar arasında daha çox yayılıb. Amma uşaqlarda artım çoxalır. Bunun da bir çox səbəbi var. Öncə bunun əsas göstəricisi ekoloji səbəbdir. Yəni su, qida, dərman kimi bütün faktorlar nəzərdə tutulur. Bütün bunlar orqanizmin əsas mühitlə bağlı olan əlamətləridir".

*"Uşaqlar arasında onkoloji xəstəliklərin yayılan növləri leykoz, leykemiya və sarkomadır"*

Həmsöhbətimizin sözlərinə görə, uşaqlarda rast gələnən onkoloji xəstəliklərin böyük bir qrupunu qanyaradıcı və limfoid toxumaların bədxassəli şişləri - hemoblastozlar təşkil edir. Leykozlar, yeni ağ qan xərçəngi uşaqlarda ən çox təsadüf edilən bütün bədxassəli şişlərin təxminən 28-30, limfomalar isə 13 faizini təşkil edir. Bundan başqa, mərkəzi sinir sisteminin şişləri də çox rast gələnən şişlər arasındadır - 20 faiz. Oğlanlarda qızlara nisbətən xəstələnmə hallarına nisbətən çox təsadüf edilir. Bu xəstəliklərin erkən aşkarlanması müalicənin daha asan olmasına və sağalma şansının artmasına gətirib çıxarır.

Həkim-ekspert təəssüf hissilə bildirdi ki, bu gün Azərbaycan əhalisi sağlam qidalanmır. Azərbaycana daxil olan qida maddələrinin keyfiyyət parametrləri xeyli aşağıdır. Bununla yanaşı, hazırda ana südünün keyfiyyəti çox aşağıdır: "Uşaqlarda immunitet sistemi çox zəifdir. Demək olar ki, tibbi sığorta yoxdur. Uşaqların pediatrik check-up müayinə yoxlama sistemi də çox aşağıdır. Bunların hamısı, ümumilikdə, uşaqlarda bu xəstəliyin yaranmasına şərait yaradır. Hazırda ana südünün keyfiyyəti də çox aşağıdır. Bu, ananın qidaları ilə bağlıdır. Ona görə də, təbii ki, uşaqlarda immunitet sisteminin formalaşması xeyli aşağıdır. Təəssüflər olsun ki, bu baxımdan, onkoloji xəstəliklərin xüsusi çəkisi uşaqlar arasında artmaqdadır. Bu xəstəliklə bağlı olaraq dünya praktikasını tətbiq etməliyik. Ən azından, gələcəyimiz olan uşaqları qorumalıyıq".

*Günel CƏLİLOVA*

№ 129 (4027) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

25 İYUL 2019-cu il

www.baki-xeber.com

# Rəqəmsal dünyanın ilk təcrübəçiləri

## "Azercell-Lab" təcrübə proqramının qalibləri elan edildi

**Ölkəmizdə telekom sahəsinin inkişafı və gənclərin bu sahəyə olan marağını artırmaq istiqamətində bir sıra layihələr həyata keçirən "Azercell Telekom" MMC-nin may ayında elan etdiyi "Azercell-Lab" ödənişli təcrübə proqramının ilk qalibləri artıq rəqəmsal dünyaya səyahətlərinə yola düşdülər.**

Təcrübəçilər iyul ayının 1-dən etibarən "İT-lab" və "Biznes-lab" inkubasiya mərkəzlərində telekom sahəsinin ən son trendləri ilə tanış olmaq fürsətindən istifadə edərək nəzəri biliklərini tətbiq edib, peşəkar mühitdə şirkətin real layihələrində iştirak edirlər. Təcrübə proqramının ilk həftəsində "Azercell" Akademiyasının professional tədrisçiləri tərəfindən "Azercell-Lab"ın rezidentlərini yeni nəsil rəqəmsal texnologiyalar ilə yaxından tanış etmək üçün xüsusi master klasslar və təlimlər təşkil edilib. Qaliblər 6 ay müddətində biznes və İT sahələrində zəngin təcrübəyə malik olan aparıcı ekspertlərlə birlikdə çalışaraq, ölkəmizin ən arzuolunan iş məkanlarından biri olan "Azercell" şirkətində karyeralarının da ilk addımlarını atmaq üçün əvəzolunmaz fürsət əldə ediblər.

Rəqəmsal texnologiyalara həvəsi olan gənclərə dəstək olmaq və onların telekommunikasiya sahəsinə marağını artırmaq məqsədi daşıyan bu layihənin qalibləri 600-dən çox namizəd arasında akademik fəaliyyəti və peşə bilikləri əsasında dəyərləndirilərək seçilib. Bu vaxtadək Azərbaycanın müxtəlif universitetlərində təhsil alan 190-dan çox tələbə "Azercell"də təcrübə keçmək fürsətindən yararlanıb. Onlardan 27-si isə artıq "Azercell" ailəsinə qoşulub. Qeyd edək ki, müvəffəqiyyətlə təhsil alan və fərqlənməyi bacaran tələbələrə xüsusi qayğı nümayiş etdirən "Azercell" şirkəti güclü liderliyin, korporativ mədəniyyətin və insan resurslarının idarə olunması təcrübəsinin davamlı inkişafının göstəricisi olaraq "Investors in People" (IIP) - İnsana Sərmayə Standartının tələbləri üzrə dəyərləndirilərək Qızıl sertifikatına sahib oldu. "Azercell" ölkəmizdə Qızıl sertifikat qazanan ilk qurum olmaqla yanaşı, MDB məkanında belə bir uğura imza atan yeganə telekommunikasiya şirkətidir.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## "Nar" şəbəkəsi gücləndirilmiş iş rejiminə keçirilib

**Ölkənin ən güclü 4G (LTE-A) şəbəkələrindən birinə malik olan "Nar" mobil operatoru 21-27 iyul tarixlərində paytaxtımızda baş tutan "XV Avropa Gənclər Yay Olimpiya Festivalı" müddətində 48 ölkəni təmsil edən gənc atletlərin, eyni zamanda, festival tamaşaçılarının telekommunikasiya tələblərinə tam şəkildə cavab vermək üçün şəbəkə dayanıqlığının təmin edilməsi işlərini başa çatdırıb.**

Mobil operator "EYOF 2019" tədbirinin tələblərinə cavab vermək, həmçinin, olimpiya həyəcanını sosial şəbəkələrdə paylaşmaq istəyən tamaşaçıları yüksək sürətli internetlə təmin etmək məqsədilə təyin olunmuş ərazilər üzrə mobil rabitə şəbəkəsində təhlilləri tamamlayıb. Yarış ərazisi və tədbir məkanlarında müştərilərin tələbləri nəzərə alınaraq mobil rabitə şəbəkəsində tutum əhəmiyyətli dərəcədə genişləndirilib, istifadəçilər üçün yüksək sürətli 4G (LTE-A) texnologiyalı mobil internetdən istifadə imkanları yaradılıb. "Nar" ziyarətçilərin sayının çoxluq təşkil edəcəyi məkanlarda telekommunikasiya xidmətlərindən sabit istifadənin təmin edilməsi üçün müvafiq ərazilərdə mobil baza stansiyası quraşdırıb. Qeyd edək ki, mobil rabitə şəbəkəsinin təhlili və dayanıqlığının təmin edilməsi işləri xüsusilə oyunların baş tutacağı 13 yarış ərazisi və paralel olaraq qeyri-yarış ərazilərində həyata keçirilib. "Nar" əməkdaşları 24/7 rejimində şəbəkəyə nəzarət edərək yarışların keçiriləcəyi məkanlarda mobil rabitə şəbəkəsinin stabilliyini təmin edəcək və şəbəkə istifadəçilərinə dəstək olacaqlar. "Nar" şəbəkəsi haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək mümkündür. Qeyd edək ki, yaranan hər hansı bir sualla bağlı "Nar" abunəçiləri yüksək keyfiyyətli müştəri xidmətlərindən özlərinə rahat olan istənilən üsulla - Çağrı Mərkəzinə zəng etməklə, şəxsi kabinet, sosial şəbəkələr, SMS və elektron poçt üzərindən yazmaqla yararlana bilər. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2.4 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

## Elan

Hüseynov Sabir İsmayıl oğlunun adına olan, Göygöl şəhərində yerləşən, Xanlar rayonu keçmiş DTXK tərəfindən verilmiş, 2006-cı il tarixli JN-2633F nömrəli torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Kiş kənd sakini Eyvazov Abid Nuhbala oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 1152 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Baş Layısqı kənd sakini Səlimov Elman Ərəstun oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 287 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Məmmədova Dilşad Balakişi qızının adına, Bakı şəhəri, Nizami rayonu, C.Naxçıvanski küçəsi, ev 34, mənzil 25 ünvanına 13.09.2003-cü il tarixdə verilmiş qeydiyyat vəsiqəsi (seriya ÖM №165594) itdiyi üçün etibarsız sayılır.

Əlimuradova Mazadə Xələf qızının adına, Quba rayonu, Rustov kəndində yerləşən torpaq sahəsinə verilmiş torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN-16F kod 30321018) itdiyi üçün etibarsız sayılır.

Abbasov Vüsal Sakit oğlunun adına, Yasamal rayonu, İ.Səfərli, M.A.Əliyev, M.İbrahimov və D.Əliyeva küçələrinin kəsişməsindəki 228-ci məhəllədə yerləşən binada qeyri-yaşayış sahəsinə (ofis), "Buta Qrup" MMC tərəfindən verilmiş müqavilə №08 və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

Quliyev Novruzağa Hacıağa oğluna məxsus, Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsi, Məktəb küçəsi, 3-cü döngə №20 ünvanının çıxarış və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Muxtarov Məmməd Şaban oğlunun adına, Lənkəran rayonu, Boladı kəndində yerləşən torpaq sahəsinə verilmiş dövlət aktı (JN-450 kod 80200028) və torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN-246F) itdiyi üçün etibarsız sayılır.

Soltanov Elvin Nurəddin oğluna DTXK tərəfindən verilmiş kadastr planı itdiyi üçün etibarsız sayılır. (Ünvan: Bakı şəhəri, Qaradağ rayonu, Lökbatan qəsəbəsi, 1-ci massivdə yerləşən torpaq sahəsi).

Həsənova Pərvanə Gülhəsən qızı və Babayeva Rəvanə Abdul qızına məxsus JN 242 kod 90918018 dövlət aktı itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Çalışarkən yaradıcı nüsnaları unutmayın. Yeni sahələrə və ya istiqamətlərə maraq yaranacaq. Problemlərin həllində trisial olmayın. Düşüncəniz orijinal, qərarlarınız innovativ olsun.



**Buğa** - Ən başlıca məsələ öz qüvvənizə inanmaq, bədgüman olmamaqdır. Çətin vəziyyətdə, ağır situasiyada ruhdan düşməyin. Günün ikinci yarısında formalaşan situasiyanı məntiqlə çözməyə çalışın.



**Əkizlər** - Yeni perspektivlər yaranır. Kommunikativ olun, problemlərin həllinə yaradıcı yanaşın. Maraqlarınızı bölüşəcək həmfikirlərin sayı arta bilər. Cari işlərdə sizə dəstək ola biləcək insanı arayın.



**Xərçəng** - Günün ilk yarısından etibarən situasiyada gərgin məqamların sayı artacaq. Nəzərdə tutulmamış gecikmələr, təxirəsalmalar olacaq. Yaxın ətrafınızdakı insanlarla münasibətləri pozmayın.



**Şir** - Bir müddət əvvəl işlərinizdə başladığınız fasilə artıq başa çatmalıdır. Aktiv olun, irəliyə doğru hərəkət edin. Yaxın ətrafınızdakı insanlarla səmimi davranın. Günün ikinci yarında sakit olun, amma mövqelərinizdən əsla geri çəkilməyin.



**Qız** - Yeni maraqlara aludə olaraq məqsədi unutmayın. İşin zərərinə olacaq addımlar atmayın. Əks halda, işdə rəhbərliyin narazılığı, həmkarların qəzəbi ilə qarşılaşa bilərsiniz. Nəzərdə tutulmayan, qəfil gəlir istisna deyil.



**Tərəzi** - Uzunmüddətli planlar qurmayın. İllüziyalara qapılaraq imkanlarınızı olduğundan artıq dəyərləndirməyin. Ən yaxın vaxtlara hesablanmış işə başlayın və nəticəyə maksimal dərəcədə sürətlə nail olun.



**Əqrəb** - Qarşınıza qoyduğunuz məqsədə çatmaq üçün qətiyyətli və ötkəm olun. Müvəqqəti çətinliklər sizi ruhdan salmasın. İradəli davranın. Hədəfləri konkretləşdirin, istəklərinizi təftiş edin.



**Oxatan** - Ən mürəkkəb və çətin məsələləri həll edə bilərsiniz. Yeni layihələrə başlamaq, işləri intensivləşdirmək zamanıdır. Biliklərinizi artırın, təcrübənizi daha səbatlı edin. Günün ikinci yarısında ideyalar mübadiləsi yaxşı nəticələr verəcək.



**Oğlaq** - Adi günlərdən fərqli olaraq bu gün ətrafınızdakı insanlarla dil tapmaq asan deyil. Mövqeləriniz, fikirləriniz laqeydliklə qarşılanar. Cari işlərin həllində prinsiplərinizə xəyanət etməyin.



**Dolça** - Günün ilk yarısından təcili həllini tələb edən işlərin sayı artacaq. Zaman keçdikcə situasiyada nizamlanma hiss olunacaq, çətinliklərin sayı azalacaq. Uzun müddətdən bəri gördüyünüz işlə bağlı irəliləyişlər müşahidə olunacaq.



**Balıqlar** - Səhər saatlarından etibarən maliyyə məsələlərinin həlli çətinləşə bilər. Maddi problemlərə rəğmən narahat olmayın. Saatlar keçdikcə situasiya sabitləşəcək. Təmkinli və səbrli olun.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## "Bakcell" şəbəkəsinin əhatə dairəsi sürətlə artmaqda davam edir

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkətinin yüksək keyfiyyətli mobil şəbəkəsinin əhatə dairəsi sürətlə artır.**

Belə ki, istifadəçilər üçün ən yüksək keyfiyyətin təmin olunması istiqamətində aparılan işlərin davamı olaraq təkcə 2019-cu il ərzində "Bakcell" tərəfindən ölkə ərazisində 700-ə yaxın yeni baza stansiya quraşdırılıb. Xatırladaq ki, 2300-dən artıq 4G texnologiyalı baza stansiyası sayəsində "Bakcell" şirkəti əhatə dairəsi və şəbəkə tutumu baxımından ölkədə ən böyük 4G şəbəkəsinə malikdir. Bunun sayəsində "Bakcell" şirkəti ölkənin bütün bölgə mərkəzlərində yüksək keyfiyyətli və ən sürətli 4G internet xidmətlərini təqdim edir. Bakı, Abşeron yarımadası və Azərbaycanın bütün şəhər və rayonlarında (Naxçıvan Muxtar Respublikası və işğal olunmuş ərazilər istisna olmaqla) yaşayan "Bakcell" abunəçiləri şirkətin təqdim etdiyi yüksək sürətli mobil internet xidmətlərindən yararlanmaq imkanına malikdirlər. Hazırda "Bakcell"in 4G şəbəkəsi əhalinin 78%, ölkə ərazisinin isə 52%-ni əhatə edir. "Bakcell"in təmin etdiyi keyfiyyət və ən yüksək mobil internet sürətinə hətta beynəlxalq səviyyədə belə yüksək qiymət verilir. Belə ki, 2018-ci ildə "Bakcell" "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Bu mükafat şirkətə "Speedtest" xidmətinə görə bütün dünyada tanınan "Ookla" şirkəti tərəfindən təqdim edilib. 2017-ci ildə isə mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən "Bakcell" şirkəti Azərbaycanda sınaq nəticələrinə görə ən yaxşı şəbəkə adına layiq görülüb ("Best in Test"). Həmçinin qeyd edək ki, 2019-cu il ərzində "Bakcell" şirkəti ölkəmizdə keçirilmiş Novruz festivalı, Formula 1 Azərbaycan Qran Prisi, UEFA Avropa liqasının final oyunu, Avropa Gənclər Yay Olimpiya Festivalı və digər əhəmiyyətli tədbirlər zamanı ən yüksək keyfiyyətli rabitəni təmin edib. Müştərilərə göstərilən xidmət keyfiyyətinin daha da təkmilləşdirilməsi məqsədilə "Bakcell" bundan sonra da ölkənin ən üstün mobil şəbəkəsinin genişləndirilməsi və modernizasiyasına yönəlmiş irimiqyaslı tədbirləri davam etdirəcək.

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.